Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

15 MAY 2020-ci il

№ 78 (4209)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# KÖÇKÜNLƏRƏ PULSUZ MƏNZİL VERİLMƏSİNDƏ CİNAYƏT EDƏNLƏRİN İŞİ ARAŞDIRILACAQ - MƏSƏLƏ PREZİDENT MƏRUZƏSİNƏ DÜŞDÜ...

■ səh. 5 ■

Klanı-tayfası da rüşvətxor başçıları həbsdən xilas etmədi - Prezident oturuşmuş korrupsiya sistemi ilə mübarizə getdiyini ortaya qoyur

■ səh. 5 ■

Azərbaycanın hərbi gedişləri Ermənistanı Qarabağ siyasətini dəyişməyə vadar edir - İrəvan "Bu dəfə bizə kim kömək edəcək" sualı qarşısında...

■ səh. 9 ■

Həbsxanalarda koronavirus faktlarını siyasiləşdirmək istəyən müxaliflərin uğursuz taktikası...

■ səh. 6 ■

Ermənistanın yeni "tarazlı kompromis" və "maksimalist mövqedən imtina" oyunu - Mnasakanyan MDB XİN Şurasında...

■ səh. 7 ■

Tarix-mədəniyyət abidələrimizin bərbad gündə olmasının müqəssiri - Zakir Sultanovun həbsi hər şeyi açdı...

■ səh. 12 ■

Baqramyanın Həzi Aslanova sui-qəsdi beynəlxalq araşdırma komissiyasında...

■ səh. 10 ■

Dünya iqtisadiyyatı ABŞ və Çin üzündən böyük təhlükəyə yuvarlanır: Azərbaycan sığortalanmış durumda...

■ səh. 11 ■

Azərbaycanın tranzit imkanlarına dünya miqyasında tələb sürətlə artır... Hətta pandemiya dövründə də...

■ səh. 13 ■



## 2016-cı il aprel döyüşləri ilə bağlı Nalbandyanın istintaqa cəlb edilməsi - Rusiyanın yeni ittihamına hazırlıq gedir...

■ səh. 7 ■





Prezident icra başçılarının daha çeşidli cinayətlərindən xəbərdar olduğuna işarə etdi - «kart və yardımların mənimsənilməsi...»

■ səh. 3 ■

Paşinyanın babasının Hitlerə satılması faktı və rəsmi Kremlin Baş nazirə münasibəti...

■ səh. 8 ■

Avropa Şurasında «erməni barmağı» hələ işləyir - qondarma «DQR»də insan hüquqlarının monitorinqi...

■ səh. 6 ■

Dərin beynəlxalq təzyiq altında sıxılan Ermənistan - Paşinyan hakimiyyətinin son atəşkəs pozuntularında niyyətləri...

■ səh. 8 ■



Mərkəzi və yerli icra hakimiyyətləri sistemində də könüllülərin dövrü başladı - Kəlbəcərin yeni başçısı ilə videogörüşdən...

■ səh. 4 ■



Pandemiya bölgələrdən aqrar məhsulların Bakıya daşınmasında ağır problemlər yaratdı - aqrar məhsulların bazar problemi...

■ səh. 15 ■



Son mərhələ bağlanan bir neçə bankda "qorunmayan 3 milyon manat" əmanətin taleyi...

■ səh. 14 ■



Sığorta şirkətlərinin "EuroHome" sahibkarları ilə nə problemi var...

■ səh. 15 ■



### Əmanətlərin Sığortalanması Fonduna İcraçı direktor təyin edildi

**Prezident İlham Əliyev Tural Piriyevin Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Tural Qüdrət oğlu Piriyev Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru təyin edilir.

### BŞBPİ Tofiq Yaqublunun qızının iddialarını əsassız saydı




**Törətdiyi əmələ görə Nizami RPİ İstintaq şöbəsində cinayət işi üzrə təqsirləndirilən Tofiq Yaqublunun qızı Nigar Həzinin müstəntiq tərəfindən istintaqın hərəkətsiz saxlanılaraq ibtidai araşdırmanın uzadılması ilə bağlı sosial şəbəkələrdə irəli sürdüyü iddiallar əsassızdır.**

Bu barədə "Trend"ə Bakı şəhər BPİ-nin Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib.

O bildirib ki, cinayət işinin ibtidai istintaqını aparan Nizami RPİ-nin İstintaq şöbəsinin müstəntiqi tərəfindən T.Yaqublunun həyat yoldaşı və qohumu şahid qismində mayın 7-də idarəyə dəvət olunmalarına baxmayaraq, məqsədli olaraq razılaşdırılmış tarixdə polis idarəsinə gəlməyiblər.

Cinayət işi üzrə bütün halların araşdırılması, istintaqın tam, obyektiv və hərtərəfli aparılması üçün istintaq hərəkətləri davam etdirilir.

# DSX-nin rəis müavini və digər yüksək rütbəli hərbçiləri həbs olundu

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluq tərəfindən həyata keçirilmiş birgə əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməllərinin qarşısı alınıb.**





Baki-xeber.com Dövlət Təhlükəsizliyi Xidmətinin saytına istinadən xəbər verir ki, faktla bağlı Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində başlanılmış cinayət işi üzrə DSX-nin rəis müavini general-leytenant Nağıyev Əfqan Vəli oğlu, DSX-nin yüksək rütbəli hərbi qulluqçuları və mülki şəxslər şübhəli şəxs qismində saxlanılıblar. Hazırda araşdırmalar davam etdirilir.

# Azərbaycanda daha 121 nəfər koronavirusa yoluxdu, 44 nəfər sağaldı

**Azərbaycan Respublikasında 121 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 44 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 2879 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1833 nəfər müalicə olunaraq sağalıb, 35 nəfər vəfat edib, 1011 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 29 nəfərin vəziyyəti ağır, 38 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 214.291 test aparılıb.

# ABŞ Konqresinin arxivlərində erməni daşnaklarının Hitlerə və Holokosta rəğbətini ifşa edən sənədlər aşkarlandı

**Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən yeni tarixi sənəd aşkar edilib.**





Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan baki-xeber.com-a verilən məlumata görə, 4 may 1945-ci il tarixində ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frank Hook erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəsləmələri, irqçi meylləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasına təqdim edib. Sözügedən məqalə ABŞ Konqresinin qeydiyyat kitabçasına daxil edilərək ABŞ hökuməti tərəfindən dərc edilib.

Məqalə daşnakları uzun müddət terrorçu-faşist aktları həyata keçirən və yaxşı təşkilatlanmış "quldur dəstəsi" adlandırır. Daşnakların yaranma tarixindən bəhs edən məqalə onların terrorizmi əsas siyasi alət kimi mənimsədiklərini bildirir.

Erməni daşnaklarının ABŞ-da Daşnaksutyun partiyasına ianə köçürməkdən imtina edən və ya onların radikal ideologiyasını paylaşmayan ermənilərə qarşı terror aktları törətdiklərini qeyd edən məqalə bu səpkidə Amerikadakı Erməni Kilsəsinin rəhbəri, arxiyepiskop Leon Tourianın 1933-cü ildə Nyu Yorkdakı kilsədə Milad bayramı ibadəti zamanı daşnak terrorçular tərəfindən qətlə yetirildiyini diqqətə çatdırır.

Daşnakların nasizmə rəğbət bəslədiklərini vurğulayan məqalə onların ABŞ-ın Boston şəhərində nəşr edilən "Hairenik" qəzetinin 17 sentyabr 1936-cı il sayına istinad edərək, daşnakların hitlerizmi və faşizmi "bəşəriyyətə hədiyyə" və "Almaniya və İtaliyaya yeni həyat verən uğurlu sistemlər" hesab etdiklərini qeyd edir.

Məqalə daha sonra daşnakların kəskin antisemit olduqlarını vurğulayaraq, onların bu mövzuda çoxlu məqalələr dərc etdirdiklərini bildirir və "Hairenik" qəzetinin 1936-cı ilin avqust sayından daşnakların Holokostu dəstəklədiyini göstərən aşağıdakı sitat təqdim olunur:"Bu zəhərli elementlər xroniki xəstəlik kimi dərin kök saldıqları üçün bəzən onların kökünü kəsmək çətindir. Və insanlar üçün qeyri-adi üsulla onların kökünü kəsmək zəruri olduqda bu cəhd və üsullar inqilabi hesab edilir. Cərrahiyyə əməliyyatı zamanı isə qanın axması normaldır… Bu cür şəraitlərdə diktatorluq xilaskar rolunu oynayır". Göründüyü kimi, erməni daşnakları altı milyon yəhudinin nasistlər tərəfindən öldürülməsini "zəhərli elemetlərin kökünü kəsmək üçün cərrahiyyə əməliyyatı" adlandırır.

Sözügedən sənəddə, həmçinin, nasistlərə xidmət etmiş erməni Qaregin Njde haqda məlumat verilərək, onun erməni irqçiliyini təbliğ edən Tseqakronizm nəzəriyyəsinin əsasını qoyduğunu və əsasən erməni gənclər arasında bu ideyanı yaydığını, habelə onun Hitlerin irqçi ideyalarını tərənnüm etdiyini və bu ideyaları özü üçün əsas götürdüyünü vurğulayır. Məqalə Njde və onun erməni daşnak tərəfdaşlarının erməni gənclərinə bu irqçi ideyaları mənimsəmələri və bu ideyalara sadiq qalmaları ilə bağlı çağırışı özündə ehtiva edən və "Hairenik Weekly" qəzetinin 11 yanvar 1935-ci il sayında dərc edilmiş müraciətini təqdim edir.

Qeyd etmək lazımdır ki, ABŞ-da Azərbaycana qarşı məkrli fəaliyyət göstərən əsas erməni lobbi təşkilatı - Amerika Erməniləri Milli Komitəsi - Daşnak təşkilatıdır.

# Prezident icra başçılarının daha çeşidli cinayətlərindən xəbərdar olduğuna işarə etdi - "kart və yardımların mənimsənilməsi..."

**Bəhruz Quliyev:** *”Həbs edilən icra başçılarının cinayət əməlləri yalnız kartları və sosial yardımları mənimsəməklə bitmir”*



*”...mərkəzi icra hakimiyyətlərində də bu proses davam etdiriləcək”*

**Bildiyimiz kimi, bəzi rayonların icra başçılarının qanunsuz əməlləri aidiyyəti qurumlar tərəfindən ifşa olunub və onlar cinayət məsuliyyətinə cəlb ediliblər. Sözügedən icra başçılarının ödəniş kartlarını, dövlət tərəfindən əhalinin sosial cəhətdən zəif təbəqələrinə ayrılan yardımları mənimsədiklərinə dair faktlar üzə çıxıb.**

Prezident İlham Əliyev dəfələrlə icra başçılarını xalq malına, kasıba ayrılan yardımlara göz dikməməyə çağırıb və onlara bildirib ki, fəaliyyətində bu kimi nöqsanlara yol verənlər mütləq mənada cəzasını alacaq. Gördüyümüz kimi, artıq qanunsuz əməlləri özünə peşə seçənlərin müəyyən bir qismi ifşa olunub.

Prezident İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən də bu məsələyə xüsusi diqqət yetirib.

"…Xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır. Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub. Biz bu vəsaiti ona görə ayırırıq ki, bu gün özünə iş tapa bilməyən adam heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Bunlar ona da göz dikiblər. Yəni gözləri doymur. Bu bir xəstəlikdir və bu xəstəliyin müalicəsi artıq işə salınıb. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm, açıq demişəm ki, əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq, cəza tədbirləri tətbiq ediləcək. Ancaq bəziləri hesab edirdi ki, bu onlara aid deyil. Bəziləri hesab edirdi ki, onlar qanundan üstündür. Yaxud da hesab edirdilər ki, kimsə onlara kömək göstərəcək, onların havadarları, onlara uzun illər ərzində dəstək verən yüksək vəzifəli şəxslər. Mən demişəm ki, bu olmayacaq. Həyat da bunu göstərdi. Ödəniş kartlarının, sosial yardımın oğurlanması bu cinayətin hələ cüzi bir hissəsidir" - deyə ölkə başçısı bildirib.

Həbs edilən icra başçılarının ödəniş kartlarının, sosial yardımın oğurlanması cinayətlərindən başqa daha hansı cinayətləri var ki, Prezident bunu xüsusi vurğulayıb?

"Səs" qəzeti və eyniadlı informasiya agentliyinin rəhbəri, tanınmış siyasi şərhçi Bəhruz Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Prezident İlham Əliyev müxtəlif məmurları vəzifəyə təyin edərkən onlara ilk tövsiyəsi vətəndaşın yanında olmaqla, vətəndaşa xidmət etməklə, ictimai nəzarəti formalaşdırmaqla hər bir məmurun vətəndaşın xidmətçisi rolunda çıxış etməsi ilə bağlı olub. "Cənab Prezident yüksək vəzifələrə təyin etdiyi bütün məmurlara bu tövsiyələri verir. Sözsüz, zaman və faktlar göstərir ki, bəzən bu məmurların bəziləri vəzifəsini icra etməyə başladıqdan sonra cənab Prezidentin tövsiyəsini unudur və tamamilə başqa yollar tutur, pul qazanmaq həvəsinə düşür, rüşvətxorluqla, korrupsiya ilə məşğul olur. Bunun da nəticəsidir ki, son dövrlərdə yerli icra hakimiyyəti orqanları rəhbərlərinin bu neqativ fəaliyyətlərinə qarşı ciddi mübarizə aparılır. Cənab Prezident həmişə çıxışlarında qeyd edib ki, korrupsiyaya qarşı çox amansız mübarizə aparılır, aparılacaq, kimliyindən asılı olmayaraq, heç kəs bu məsələdə sığortalanmayıb. Əminəm ki, yerli icra hakimiyyətlərindən sonra mərkəzi icra hakimiyyətlərində də bu proses davam etdiriləcək. Yəni harda ki, ictimai fikirdə hansısa qurumda rüşvətxorluq və korrupsiya olmasına dair rəy formalaşıbsa, yaxud sosial şəbəkələrdə, eləcə də digər yerlərdə bu məsələ xüsusi vurğulanırsa, bunlar aidiyyəti qurumlar tərəfindən ciddi araşdırılır. Dövrün tələbi, əsas prioritet istiqamətlərdən biri korrupsiyanın, rüşvətxorluğun yığışdırılmasıdır. Həbs edilən icra başçılarının cinayət əməlləri yalnız kartları və sosial yardımları mənimsəməklə bitmir, onların əməllərində ciddi rüşvət, korrupsiya cinayətləri, eyni zamanda da bürokratik əngəllərin yaradılması, süründürməçiliyə yol verilməsi, insanları məcburi rüşvət verməyə təhrik etmə faktları da var. Bu, eyni zamanda, müxtəlif dövlət qurumlarında var. "ASAN xidmət" kimi bir təsisatın formalaşdırılması deyərdim ki, dövlət qurumları ilə vətəndaşlar arasında çox yaxşı bir vasitəçi oldu. Yəni "ASAN xidmət"in fəaliyyətə başlaması nəticəsində vətəndaşlar son dövrlər dövlət qurumlarında olan bürokratik əngəllərlə qarşılaşmadılar. Bu qurum bu işi ən yüksək səviyyədə bacardı. Demək istəyirəm ki, vahid pəncərə sistemi də, "ASAN xidmət" də bir yerdən bu məsələlərin idarə edilməsini, vətəndaşların sənədləşmə və digər problemlərinin həllini təmin etdi. Bu proses "ASAN xidmət"də həyata keçirildiyi üçün dövlət qurumlarının vətəndaşlarla təması sıfıra endirildi. Bu üsullar onsuz da tətbiq edilməkdədir. Amma yenə də harda insan faktoru, məmur faktoru varsa, orada rüşvətə, pula meyllilik ola bilər. Buna görə Prezidentin verdiyi tapşırıqların kökündə, mərkəzində dayanan odur ki, məmur rüşvət almamalı, korrupsiyaya qapılmamalı, bu faktla hər hansı formada həbs edilməməlidir, məmurun əsas vəzifəsi vətəndaşın yanında olmaq, vətəndaşa xidmət göstərmək və xalqla bərabər olmaqdır. Hər bir məmurun vəzifəsi budur".

B.Quliyevin sözlərinə görə, bəzən sənədləşmə məsələsində rüşvətin tələb olunması cəhdləri ilə bağlı faktlar var. O bildirdi ki, müxtəlif sahələrdə, hətta kənd təsərrüfatı sektorunda sakibkarların, fermerlərin fəaliyyətinə yerli icra hakimiyyəti orqanları əngəllər törədirlər. "Onları hər hansı formadasa məcbur edirlər ki, rüşvət versinlər. Bu cür hallar var. Yaxud sahibkarlıq, biznes fəaliyyətilə məşğul olan insanlar bəzi hallarda müxtəlif təzyiqlərlə qarşılaşırlar. Bu da ayrı bir faktdır. Bəli, dövlət qurumlarında bəzi rüşvət halları var. Əsas odur ki, bu faktlar gizlin qalmır, onlar araşdırılır və bununla bağlı mübarizə həyata keçirilir. Son aparılan işlər nəticəsində rüşvət alan məmurların ifşa olunması onu göstərir ki, dövlət, sözün əsl mənasında, cənab Prezidentin qeyd etdiyi kimi, rüşvətxorluğa, korrupsiyaya qarşı amansız mübarizə aparır.

**O da yaxşı haldır ki, bundan hər bir vətəndaş məmnun qalır. Ona görə də vətəndaş məmnunluğunun təmin olunması üçün məmur özünün vəzifələrini düzgün icra etməlidir. Necə ki, cənab Prezident bütün çıxışlarında, bütün qəbullarında da bu tapşırıqları verib. Vətəndaş da öz hüquq və vəzifəsini bilib, o çərçivədə görülən işlərə dəstək olmalıdır" - deyə B.Quliyev vurğuladı. B.Quliyevin sözlərinə görə, bu istiqamətdə həyata keçirilən tədbirlər təqdirəlayiqdir və rüşvət hallarının aradan qaldırılması istiqamətində tam ciddi mübarizə aparılır.**

*İradə SARIYEVA*

**"...Ümumiyyətlə, gənclər son illər ərzində ictimai həyatda çox fəal rol oynayırlar. Mən xüsusilə könüllüləri qeyd etmək istərdim. Bu il mənim sərəncamımla "Könüllülər ili" elan edilmişdir. Mən çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər, bizim ümumi işimizə çox böyük töhfə verirlər.**



# Mərkəzi və yerli icra hakimiyyətləri sistemində də könüllülərin dövrü başladı - Kəlbəcərin yeni başçısı ilə videogörüşdən...

***Rauf Zeyni:*** *"Mərkəzi və yerli icra hakimiyyətləri könüllüləri cəlb etməli və burada könüllülər hərəkatını gücləndirməlidirlər"*

Könüllülər hərəkatı ASAN könüllülərdən başlamışdır. Bu gün ASAN könüllüləri, sözün əsl mənasında, Azərbaycan gəncliyinə xas olan ən gözəl xüsusiyyətləri özlərində birləşdirirlər, o xüsusiyyətləri təcəssüm etdirirlər. Hazırda digər sahələrdə də könüllülər kifayət qədər geniş fəaliyyət göstərirlər. Mən daim onların fəaliyyətini izləyirəm və onların fəaliyyətinə yüksək qiymət verirəm.

Mənim göstərişimlə mərkəzi və yerli icra orqanlarında da könüllülər işə cəlb edilməlidirlər. Siz də icra hakimiyyəti başçısı kimi bu məsələyə diqqət yetirin ki, həm ictimai nəzarət baxımından işlər daha yaxşı getsin, həm ictimai fəallıq artsın və bu gün insanları narahat edən məsələlər öz həllini tapsın. Buna nail olmaq üçün, əlbəttə ki, ilk növbədə, mərkəzi və yerli icra orqanları səmərəli fəaliyyət göstərməlidirlər, eyni zamanda, ictimai nəzarət yüksək səviyyədə olmalıdır. Ona görə sizin təyinatınız həm sizə göstərilən etimaddır, eyni zamanda, gənclərə göstərilən diqqətdir. Bir daha demək istəyirəm ki, siz bu yüksək etimadı öz işinizlə doğrultmalısınız". Bu fikirləri Prezident İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib.

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Prezidentin göstərişinə məsuliyyətlə əməl etməli olduğunu deyən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il Azərbaycanda "Könüllülər İli" elan edilib. "Bu, ölkə Prezidenti tərəfindən könüllülər hərəkatına, vətəndaş cəmiyyətinə, bütövlükdə, şəffaflıq, aşkarlıq, ictimai nəzarət, monitorinq kimi məsələlərə ciddi dəstək vermək, onların fəaliyyətini yüksək səviyyədə qiymətləndirmək deməkdir. Bildiyiniz kimi, Prezidentin tapşırığına əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları könüllülər hərəkatına dəstək verməyə başladılar. Bir sıra nazirliklərdə könüllülər fəaliyyətə başladı, könüllülər birlikləri yarandı. Bu həm də qeyri-hökumət təşkilatları üçün böyük imkanların yaradılması deməkdir.

Mən də belə düşünürəm ki, hansı mərkəzi və yerli icra hakimiyyətlərində könüllülərin fəaliyyəti təmin edilməyib, orada könüllülərin işi passivdir, bu məsələyə diqqət yetirilməyib, onlar dərhal hərəkətə keçməlidir.

*"...onlar dərhal hərəkətə keçməlidir"*

Mərkəzi və yerli icra hakimiyyətləri könüllüləri cəlb etməli və burada könüllülər hərəkatını gücləndirməlidirlər. Bu qurumlar könüllüləri dəvət edib onları təşkilatlandırmalıdırlar. Eyni zamanda, onlara dəstək verməlidirlər və onları müxtəlif şəhərlərin, rayonların, bütövlükdə, ölkəmizin inkişafına yönəltməlidirlər. Bu çox böyük hərəkatdır. Baxmayaraq ki, pandemiya bizim bir qədər imkanlarımızı məhdudlaşdırır, ancaq yenə də bu ili "Könüllülər ili" kimi xüsusi dəyərləndirməliyik və könüllülərin potensialından daha yüksək səviyyədə istifadə etməliyik. Bu bizə həm də ona görə lazımdır ki, cəmiyyətimiz saflaşsın, güclənsin, kamilləşsin və dövlətimiz də onların timsalında böyük könüllülər ordusu qazansın".

R.Zeyni, həmçinin, əlavə etdi ki, bu il Ədliyyə Nazirliyində və digər nazirliklərdə, "ASAN xidmət"də könüllülər hərəkatı yaradılıb, o cümlədən də Milli Qeyri-Hökumət Təşkilatları Forumunda "Könüllülər birliyi" fəaliyyətə başlayıb. "Karantin rejimi başa çatdıqdan sonra, təbii ki, onların fəaliyyətini genişləndirəcəyik və fəallaşdıracağıq" - deyə R.Zeyni vurğuladı.

***İradə SARIYEVA***

---

**Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalının may buraxılışına müsahibəsində deyib ki, bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir:**




# Azərbaycan-Rusiya 5 istiqamətli əməkdaşlıq yol xəritələrinə 2-si də əlavə olundu...

"Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Prezident Vladimir Vladimiroviç Putin ilə mənim çoxsaylı şəxsi görüşlərim ikitərəfli qarşılıqlı əlaqələrin inkişafına çox ciddi təkan verir, həmçinin bizim regionda vəziyyətə də müsbət təsir göstərir. Biz fəaliyyətimizin, demək olar ki, bütün sahələrini - ticarət, nəqliyyat, energetika, humanitar sahə və turizmi əhatə edən beş yol xəritəsi çərçivəsində proqramı fəal reallaşdırırıq. Ötən ilin sonunda bu yol xəritələrinə daha ikisi - innovasiyalar və gənclər siyasəti üzrə yol xəritələri əlavə edilib".

Rusiya ilə Azərbaycan arasındakı əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu iddia etmək olarmı?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, strateji tərəfdaşlıq səviyyəsində inkişaf edən çoxvektorlu Azərbaycan-Rusiya münasibətləri mühüm mərhələyə qədəm qoyub:"Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Ölkəmizin Rusiyaya qoyduğu investisiya 1,2 milyard dollar, Rusiyanın isə Azərbaycana qoyduğu investisiya 4,9 milyard dollar həcmindədir. İllik ticarət dövriyyəsinin həcmi 3 milyard dollara yaxındır. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın müəssisə qeydə alınıb, Rusiyanın ölkəmizin iqtisadiyyatına birbaşa investisiyalarının həcmi 1,5 milyard dollardır. Hazırda iki ölkə arasında 200-dən çox dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Keçən il Rusiya-Azərbaycan əməkdaşlığının 2024-cü ilədək olan dövr üçün əsas istiqamətləri razılaşdırıldı . Razılaşma özündə 7 "yol xəritəsi"ni ehtiva edir.

İlkin razılaşdırılmış 5 yol xəritəsi tərəflərarası ticarətin və qarşılıqlı investisiya həcminin artırılması, nəqliyyat potensialının inkişafı, birgə müəssisələrin yaradılması sahəsinə aiddir. Keçən ilin sonunda razılaşdırılmış 6- cı və 7-ci yol xəritəsi rəqəmsallaşma sahəsinə, büdcə-vergi sektorunda təcrübə mübadiləsinə, həmçinin humanitar əlaqələrin inkşafına istiqamətlənib.

Yol xəritələrinin sayı ikitərəfli münasibətlərin genişlənməsi üzərindən artıb və burda əsas yükü nəqliyyat-tranzit sahəsi üzrə əməkdaşlığımızın istiqamətləri müəyyənləşdirir . Rusiya, Azərbaycan, İran və Hindistanın iştirakçısı olduğu "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" layihəsi Qərbi Avropanı, Fars Körfəzini və Asiyanı birləşdirən bir layihədir. Azərbaycan layihədə 3 marşrut: Qərb, Şərq və Mərkəzi marşrutlar üzrə iştirakçıdır.

**İmzalanan iki yeni yol xəritəsi isə 2020-2022 illəri əhatə edir, maliyyə sahəsinin rəqəmsallaşdırılması sahəsində, innovasiyaların inkişafı və rəqəmsal iqtisadiyyat sahəsindəki əməkdaşlığı və ölkələrə qarşılıqlı səfərləri və humanitar təmasları artırılmasını nəzərdə tutur.**

Son iki yol xəritəsi üzrə razılaşmalar ilkin olaraq keçən il 3 oktyabr tarixində "Valday forumu"nda həyata keçirilib, 20 dekabr tarixində Sankt-Peterburqda MDB-nin qeyri-rəsmi zirvə görüşündə yekunlaşıb".

***Məhəmmədəli QƏRİBLİ***

**Prezident İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib ki, sosial ədalət prinsipləri üstünlük təşkil etməlidir:"Ədalət hər bir sağlam cəmiyyətdə aparıcı ideya, aparıcı tezis olmalıdır.**

# Köçkünlərə pulsuz mənzil verilməsində cinayət edənlərin işi araşdırılacaq - məsələ Prezident məruzəsinə düşdü...



## *Elşən Əliyev: "Ölkə başçısının səsləndirdiyi fikirlər həmin qurumda da hüquqi araşdırmaların aparılmasını zəruri edir"*

Çünki ədalətsizlik insanları incidir, ədalətsizlik insanlarda inamı qırır. Ədalətsizlik nəticə etibarilə böyük problemlərə gətirib çıxarır. Ona görə hər bir sahədə ədalət prinsipi bərqərar olmalıdır. Məsələn, bu il köçkünlərə 8 minə yaxın mənzil veriləcək. Bu mənzillərin verilməsində tam şəffaflıq olmalıdır. Həm Dövlətqaçqınkom və eyni zamanda, yerli icra orqanları burada birgə işləməlidirlər. Köçkünlərin dəqiq uçotu aparılmalıdır. Əfsuslar olsun ki, əvvəlki illərdə bu uçot lazımi səviyyədə aparılmırdı. Belə məlumatlar var ki, bəzən qəsdən aparılmırdı. Çünki dəqiq uçotun olmaması müxtəlif manipulyasiyalara yol açırdı. İndi biz araşdırma, təftiş aparırıq, görürük ki, köçkünlər üçün tikilmiş evlərdə bəzi hallarda heç köçkün statusuna aid olmayan insanlar yaşayır. İndi biz bəzi ictimai binaları boşaldırıq, köçkünləri yeni mənzillərə köçürürük, sonra da görürük ki, - məsələn, bu yaxınlarda mənə məlumat verildi, - bir binada yaşayanların 20 faizi heç köçkün deyildi. Necə gəliblər oraya? Kim onları yerləşdirib? Kim onları qeydiyyata alıb? Dövlət orqanları. Nəyinsə müqabilində bunu ediblər. Yoxsa necə ola bilər ki, köçkünlər üçün nəzərdə tutulan binada başqa insanlar yaşayır? Belə hallar var. Mənzillərin bölgüsündə mənfi hallar kifayət qədər çox idi. Mənə verilən məlumata görə, bəzi hallarda köçkünlərdən pul alırdılar. Halbuki, dövlət onları pulsuz mənzillərlə təmin edir. Bu faktlar da araşdırılır. Ona görə, ilk növbədə, dəqiq uçot aparılmalıdır. Dövlətqaçqınkoma bu məsələ ilə bağlı göstərişlər verilib. Aidiyyəti yerli icra orqanlarının rəhbərliyi bu məsələdə çox diqqətli olmalıdır və bu işlər birgə tənzimlənməlidir".

Göründüyü kimi, ölkə başçısı məcburi köçkünlərə paylanılan evlərlə də bağlı ciddi pozuntulara yol verildiyini, hətta vəziyyətin bundan da acınacaqlı olduğunu bildirib. Belə ciddi faktlar Prezidentin əlindədirrsə, həmin sahədə də ciddi antikorrupsiya tədbirlərinin görüləcəyini təxmin etmək olarmı?

İqtisadçı Elşən Əliyev qəzetimizə açıqlamasında bildirdi ki, erməni təcavüzü nəticəsində öz tarixi torpaqlarından didərgin düşmüş soydaşlarımız respublika ərazisinin müxtəlif yerlərində müvəqqəti məskunlaşıblar:"Yadınızdadırsa, əvvəllər Azərbaycanın böyük ərazilərində çadır şəhərcikləri salınmışdı. Dövlətimizin iqtisadi rifahı artdıqca, həmin çadırlarda yaşayan əhali yeni tikilən və pulsuz paylanan evlərə köçürüldü. Bəllidir ki, proses hələ tam yekunlaşmayıb. Müxtəlif sanatoriya və pansionatlarda, tikintisi yarımçıq qalmış binalarda, uşaq bağçalarında və yataqxanalarda müvəqqəti məskunlaşanlar da var. Belə obyektlərin cari təmiri üçün dövlət büdcəsindən müvafiq maliyyə vəsaiti ayrılır. Yəni dövlət əlindən gələni edir ki, bu həssas təbəqənin vəziyyəti yaxşı olsun. Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlərin görülməsinə mərhum Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə başlanılıb. Məlum olduğu kimi, ulu öndərin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin əldə etdiyi gəlir, ilk növbədə, məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilərək çadır düşərgələrinin ləğvinə başlanılıb. Bu istiqamətdə tədbirlər Prezident İlham Əliyev tərəfindən davam etdirilib, çadır düşərgələrinin ləğvi başa çatdırılıb, məcburi köçkünlər müasir tipli yeni qəsəbələrə köçürülüb, onlara məşğulluq və təsərrüfatçılıq imkanları yaradılıb. Ancaq biz təəssüf hissi ilə qeyd etməliyik ki, dövlətimizin bu siyasətinə də kölgə salanlar var.

Ölkə başçısı məcburi köçkünlərə verilən evlərlə bağlı ortaya konkret faktlar qoydu ki, əlaqədar qurumlar hansı saxtakarlıqları ediblər. Təsəvvür edirsinizmi, ölkə başçısı deyir ki, araşdırıb görüblər bir binada yaşayanların heç 20 faizi məcburi köçkün deyil. Deməli, burada ciddi qanun pozuntuları, korrupsiya halları olub. Əminəm ki, bu istiqamətdə də lazımi addımlar atılacaq. Çünki ölkə başçısının səsləndirdiyi fikirlər həmin qurumda da hüquqi araşdırılmaların aparılmasını zəruri edir".

***Məhəmmədəli QƏRİBLİ***

**Prezident İlham Əliyev Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib ki, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır:"Bu mübarizə bu gün öz nəticələrini verir.**

# Klanı-tayfası da rüşvətxor başçıları həbsdən xilas etmədi - Prezident oturuşmuş korrupsiya sistemi ilə mübarizə getdiyini ortaya qoyur



## *Elşən Həsənov: "Bütöv bir korrupsiya mexanizminə qarşı müharibə elan edilib"*

Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir".

Ölkə başçısı artıq beş icra hakimiyyəti başçısının həbs olunduğunu vurğulayıb:"Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub. Biz bu vəsaiti ona görə ayırırıq ki, bu gün özünə iş tapa bilməyən adam heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Bunlar ona da göz dikiblər. Yəni gözləri doymur. Bu bir xəstəlikdir və bu xəstəliyin müalicəsi artıq işə salınıb. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm, açıq demişəm ki, əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq, cəza tədbirləri tətbiq ediləcək. Ancaq bəziləri hesab edirdi ki, bu onlara aid deyil. Bəziləri hesab edirdi ki, onlar qanundan üstündür. Yaxud da hesab edirdilər ki, kimsə onlara kömək göstərəcək - onların havadarları, onlara uzun illər ərzində dəstək verən yüksəkvəzifəli şəxslər. Mən demişəm ki, bu olmayacaq. Həyat da bunu göstərdi. Ödəniş kartlarının, sosial yardımın oğurlanması bu cinayətin hələ cüzi bir hissəsidir".

Göründüyü kimi, ölkə başçısı həbs edilən icra başçılarının bədnam əməllərinə göz yumanlardan və həmin rüşvətxorlara uzun illər dəstək verən yüksək vəzifəli şəxslərdən danışıb. Bu nəticəyə gəlmək olarmı ki, korrupsiya ilə mübarizə fərdlərlə yox, bütöv bir oturuşmuş sistemə qarşı aparılır?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün dünyada koronavirus pandemiyası tüğyan etdiyi vaxtda Azərbaycan da bütün resurslarını səfərbər edərək vətəndaşların sağlamlığının qorunması, eyni zamanda, iqtisadi subyektlərə dəstək və korrupsiya ilə mübarizə istiqamətində fəaliyyətini davam etdirir:"2018-ci ildə keçirilmiş seçkilərdən sonra Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrində genişmiqyaslı islahatlara, kadr dəyişikliklərinə start verdi. O vaxtdan da ölkədə bu istiqamətdə xeyli işlər görülüb.

Azərbaycanda antikorrupsiya tədbirlərinin həyata keçirilməsinə ara verilmir. Çox qısa zaman kəsiyində Azərbaycanda beş rayonun icra hakimiyyətinin başçısı, dövlət aparatının müxtəlif strukturlarında çalışan 20-dən çox məmur qandallanaraq məhkəmə qarşısına çıxarıldı. Həmçinin Mədəniyyət Nazirliyində keçirilən əməliyyatda nazir müavini və xidmət rəhbəri saxlanaraq barələrində həbs qətiimkan tədbiri seçilib. Bütün bunlar onu göstərir ki, dövlət aparatında hələ də dövlətçiliyə, xalqa xəyanət edən, korrupsiyaya bulaşmış vəzifə sahibləri az deyil. Hesab edirəm ki, onların cinayətləri Azərbaycan Prezidentinin siyasi kursunu faktiki olaraq zərbə altına qoymağa yönəlib. Bəli, Prezident doğru olaraq bildirdi ki, belə rüşvətxorları uzun müddət himayə edənlər olub. Bu artıq korrupsiya ilə mübarizənin daha geniş aspektdə aparıldığını şərtləndirir. Yəni bütöv bir korrupsiya mexanizminə qarşı müharibə elan edilib. Fikrimcə, bu proses davam edəcək. Bir siyasətçi kimi Prezident İlham Əliyevi xarakterizə edən cəhətlərdən biri də onun verdiyi sözün üstündə durmasıdır".

Partiya sədrinin sözlərinə görə, cəmiyyət də bu istiqamətdə ölkə başçısına hərtərəfli dəstək olmalıdır:"Çalışmalıyıq ki, dövlət orqanlarına ictimai nəzarəti təşkil edək. Ölkə başçısının da dəfələrlə vurğuladığı kimi, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri də bu işdə fəal olmalıdırlar. Bununla da korrupsiyanın aradan qaldırılmasında milli həmrəylik nümayiş etdirərik".

***Məhəmmədəli QƏRİBLİ***

Ermәni mediası yazır ki, Avropa Şurası insan hüquqları orqanlarının hәll olunmamış münaqişә әrazilәrinә daxil olmasını zәruri hesab edir. AŞ sözçüsü Tatyana Baeva ermәni mediasına açıqlamasında bildirib ki, Avropa Şurasının bu mәsәlә ilә bağlı mövqeyi dәyişmәyib:

*”AŞ separatçı qurumlarda insan hüquqlarının vәziyyәtindәn belә narahatdırsa...”*

# Avropa Şurasında "ermәni barmağı" hәlә işlәyir - qondarma "DQR"dә insan hüquqlarının monitorinqi...

***Ramil Hüseynov:*** *”Bu kimi monitorinqlәrin keçirilmәsi tәşәbbüsü dövlәtlәrin әrazi bütövlüyünü birbaşa tәhdid edir”*




"Avropa Şurasının qondarma "boz zonalarda "insan hüquqlarının müdafiәsi ilә bağlı mövqeyi dәyişmәyib".

Daha әvvәl AŞ-nin Baş katibi Mariya Peyçinoviç insan hüquqları orqanlarının hәll olunmamış münaqişә әrazilәrindәki "boz zonalar"a daxil olmağın tәmin edilmәsinin vacibliyini bildirib: "Üzv dövlәtlәrimizin bütün vәtәndaşları bu әrazilәrdә faktiki nәzarәtdәn vә statuslarından asılı olmayaraq, Konvensiya ilә tam qorunmalıdır. Baş katib bütün maraqlı tәrәflәrlә, o cümlәdәn, üzv dövlәtin hüquqi orqanları vә de-fakto hakimiyyәti orqanları ilә, habelә monitorinqi asanlaşdıra bilәn hәr hansı üzv dövlәtlә sıx әlaqә quraraq, bu sahәlәrdә Avropa Şurasının müvafiq qurumlarına müraciәt etmәyә borcludur".

AŞ-nin әvvәlki baş katibi Torbyorn Yaqland da bәnzәr mövqe sәrgilәyib: "Mülki bir komissara icazә verilmәmәsi yolverilmәzdir. "Boz zonalar" komissarlığa açıq olmalıdır. Bu "boz sahәlәr"dәn biri Qarabağdır. Avropa İttifaqı hökumәti bu sahәdә humanitar monitorinq mәqsәdilә komissara ziyarәt etmәk sәlahiyyәtini vermәk üçün bәyanat vermәlidir".

Görünәn odur ki, AŞ-dәki ermәnipәrәst dairәlәr bu istiqamәtdә sәylәrini davam etdirirlәr. Hansı ki, AŞ-nin bu mövqeyi tәhlükәlidir. Çünki Dağlıq Qarabağda insan hüquqlarının vәziyyәti ilә bağlı qurumun hәr hansı monitorinqi dövlәtlәrin әrazi bütövlüyü prinsipi ilә bir araya sığmır. Bir sözlә, bu çox xoşagәlmәz tәşәbbüsdür.

Mәsәlәyә münasibәt bildirәn siyasi ekspert Ramil Hüseynovun sözlәrinә görә, qәtiyyәn AŞ-nin bu tәşәbbüsünә yol vermәk olmaz: "Tanınmamış әrazilәrdә bu kimi monitorinqlәrin keçirilmәsi tәşәbbüsü dövlәtlәrin әrazi bütövlüyünü birbaşa tәhdid edir. Belә bir hal baş verәrsә, o zaman ermәnilәr böyük hәvәslә qondarma "DQR"in tәbliğindә istifadә edәcәklәr. Bu, Ermәnistan vә ermәni lobbisi üçün separatçı qurumu tәbliğ etmәk baxımından göydәndüşmә fürsәt olacaq. AŞ separatçı qurumlarda insan hüquqlarının vәziyyәtindәn belә narahatdırsa, o zaman Dağlıq Qarabağ vә әtraf 7 rayondan didәrgin salınan 1 milyonadәk mәcburi köçkünün hüquqlarını gündәmә gәtirsin. Bunun sәbәbkarı olan Ermәnistana qarşı sanksiyalar tәtbiq olunsun. Belә olarsa, o zaman qurumun әdalәtli mövqedәn çıxış etdiyinә inanmaq olar. Bir mәqamı da xüsusi qeyd etmәk istәyirәm ki, AŞ rәsmilәri "boz zonalarda" insan hüquqlarının vәziyyәtini gündәmә gәtirәrkәn, nәdәnsә, bu işlәrin ancaq qondarma "DQR"dә hәyata keçirilmәsinә daha çox maraq göstәrirlәr. Postsovet mәkanında olan digәr separatçı qurumlarda bununla bağlı monitorinqlәrin aparılmasına maraq göstәrmirlәr. Bunun özü ikili yanaşmanın bariz göstәricisidir".

***Vidadi ORDAHALLI***

---

Penitensiar Xidmәt müәssisәsindә 33 nәfәrdә virus tapıldığı rәsmәn tәsdiqlәnir. Düzdür, xoşagәlәn hal deyil. Ancaq bәzi radikal dairәlәr bunu böyük fәlakәt kimi tәqdim etmәyә çalışır. Hәtta bu fakta görә hәbsxanlardakı bütün dustaqların azad edilmәsini dә tәlәb edirlәr.

# Hәbsxanalarda koronavirus faktlarını siyasilәşdirmәk istәyәn müxaliflәrin uğursuz taktikası...

***Elçin Salmanov:*** *”Bu mәsәlәni siyasilәşdirmәk üçün heç bir әsas görmürәm”*



Qapalı mühitdә xәstәliyin hәm yayılma, hәm dә müalicә olunması asandır. Hәmin mәhkumları lokallaşdırıb müalicәlәrini tәmin etmәk mümkündürsә, belә isterika nәyә lazımdı? Üstәlik, virus hәtta bәzi inkişaf etmiş ölkәlәrin ordularına da nüfuz edә bilibsә, 33 mәhkumun yoluxması ilә belә manipulyasiyalar etmәyә dәyәrmi?

Koronavirusa yoluxan dustaqlarla bağlı son açıqlamada bildirilir ki, 2 aydan artıqdır koronavirus pandemiyası ilә әlaqәdar vәtәndaşların penitensiar müәssisәlәrә daxil olması, mәhkum vә hәbs edilmiş şәxslәrә görüşlәrin verilmәsi, habelә gәtirilәn sovqatların qәbul edilmәsi müvәqqәti olaraq dayandırılıb.

Qeyd edәk ki, bu görülmüş tәdbirlәrә baxmayaraq, 3 gün öncә 13 saylı cәzaçәkmә müәssisәsindә mәhkumlar vә әmәkdaşlar arasında COVID-19 müayinәlәri aparılıb. Test nәticәlәri 33 mәhkumda müsbәt çıxdığından, onlar dәrhal izolyasiya olunaraq xüsusi karantinә yerlәşdirilib.

Pentensiar Xidmәtin ictimaiyyәtlә әlaqәlәr şöbәsinin rәhbәri Mehman Sadıqov açıqlamasında deyib ki, 13 saylı CÇM-dә testlәri pozitiv çıxan 33 nәfәr mәhkum İxtisaslaşdırılmış Müalicә Müәssisәsindә ayrıca korpusa yerlәşdirilib. Hazırda onların müalicәsi standartlara uyğun davam etdirilir:"Bununla yanaşı digәr müәssisәlәrdә dә әvvәlki qaydada COVID-19-la bağlı tәdbirlәr davam etdirilir. Hәtta mәhkumlar yemәkxanalarda da ara mәsafәsi saxlamaqla növbәyә durub hazır yemәklәri qәbul edirlәr. Mәhkumların bu virusa yoluxmaması dövlәtimizin daim diqqәtindә olduğu kimi, Penitensiar Xidmәtin rәhbәrliyinin dә diqqәtindәdir".

Uzun müddәt Әdliyyә Nazirliyi yanında ictimai komitәdә tәmsil olunmuş, QHT rәhbәri Elçin Salmanov "Bakı-Xәbәr"ә açıqlamasında bildirdi ki, Penitensiar Xidmәt müәssisәlәrindәki vәziyyәtlә bağlı tәsәvvürlәri genişdir: "Demәk olar ki, bütün müәssisәlәrdә monitorinqlәr aparmışıq. Bilirsiniz ki, hәmin yerlәr qapalı sayılır. Koronavirus pandemiyasının yayılması ilә bağlı isә Penitensiar Xidmәt müәssisәlәrindә rejim bir qәdәr dә ciddilәşdirikdi. Kәnardan sovqatların qәbulu dayandırıldı. Mәhkumlarla canlı görüş halları mәhdudlaşdırıldı. Buna baxmayaraq, cәmiyyәtlә tәmas qalır. Ora müxtәlif әrzaqlar daşınır vә s. Yәni epidemiyanın qapalı müәssisәyә sirayәt etmәsi mümkündür. İş burasındadır ki, hәmin 33 mәhkumu başqlarından tәcrid edib müalicә etmәk üçün dә Penitensiar Xidmәtin şәraiti var. Bunu müәssisәnin özündә dә onları izoliyasiya etmәklә hәyata keçirmәk mümkündür. Bundan әlavә, xidmәtin ayrıca Müalicә Müәssisәsi vә vәrәm üzrә ixtisaslaşmış ayrıca müәssisәsi var.

**Mәn rәsmi qurumların da bu istiqamәtdә münasibәtlәrini oxuyuram. Artıq vәziyyәtin tam nәzarәtә götürüldüyü bildirilir. Bilirsiniz ki, Azәrbaycan dövlәti yaşı 65-dәn yuxarı olan bir çox mәhkumları Prezidentin fәrmanı ilә әfv etdi. Bu, ölkә rәhbәrliyinin vәtәndaşların bütün tәbәqәlәrinin sağlamlığına diqqәtinin göstәricisi idi. Bu mәsәlәni siyasilәşdirmәk üçün heç bir әsas görmürәm. Әminәm ki, yoluxan mәhkumlar tezliklә sağlamlıqlarına qovuşacaqlar".**

***Mәhәmmәdәli QӘRİBLİ***

**Ermənistanın keçmiş xarici işlər naziri Edvard Nalbandyan 2016-cı ildəki aprel döyüşlərini araşdırmaq üçün yaradılmış parlament komissiyasının iclasında dindiriləcək. Erməni mediasının məlumatına görə, bu barədə komissiyanın rəhbəri Andranik Koçaryan deyib.**

# 2016-cı il aprel döyüşləri ilə bağlı Nalbandyanın istintaqa cəlb edilməsi - Rusiyanın yeni ittihamına hazırlıq gedir...

***Əli Orucov:** "Paşinyan rəqiblərini müxtəlif formada təqib etmək yolunu tutdu"*



Onun sözlərinə görə, artıq Nalbandyana məktub göndərilib: "Nalbandyan Moskvadadır, orada çox yaxşı elit mənzili var. İndi Moskva vilayətində öz "daçasında" yaşayır. Deyirlər ki, çox təhlükəsizdir".

Sabiq nazirə dəvət Ermənistanın Rusiyadakı səfiri Vardan Toqanyan vasitəsilə göndərilib. Ona 18-25 may tarixləri arasında iclasda iştirak etmək təklif olunub.

Məlumat üçün qeyd edək ki, komissiyanın 11 may iclasına Ermənistanın keçmiş baş naziri Karen Karapetyan dəvət olunub. Daha əvvəl Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan da dəvət olunmuşdu.

Bu arada erməni mediası Nalbandyanın istintaqa dəvət olunmasının üstündə xüsusi dayanır. Qeyd olunur ki, bu, aprel müharibəsinin daha geniş hərbi-siyasi müstəvidə nəzərdən keçirilməsindən xəbər verir.

Erməni mediası bununla bağlı bu və ya digər formada Rusiyanı da ittiham edir: "Bu dəstək birbaşa və ya dolayı hərbi-siyasi aktlarla hədsiz dərəcədə təmin edildi. Məqsəd Azərbaycan təcavüzünü, hər iki tərəfin Artsaxda bir rus hərbi iştirakını qəbul etmək məcburiyyətində qalacaq bir vəziyyət yaratmağa təşviq etmək idi. Serj Sarkisyan bunu birbaşa aprel müharibəsinin 4-cü ildönümündə lentə alınan filmdə bildirdi".

O da qeyd edilib ki, Ermənistanda o zaman, ümumiyyətlə, Rusiyanın siyasətinə xidmət edən xarici siyasət aparılırdı.

Bütün bu deyilənlərin fonunda maraqlıdır, Nalbandyanın istintaqa çağırılmasında məqsəd nə ola bilər? Bunu aprel məğlubiyyətinə görə Rusiyanı ittiham etməyə hazırlıq kimi başa düşmək olarmı?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bir il əvvəl sözügedən istintaq komissiyasının yaradılması sırf siyasi xarakterlidir: "Məsələ ondadır ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Paşinyan rəqiblərini müxtəlif formada təqib etmək yolunu tutdu. Birinci mərhələdə əvvəlki "Qarabağ klanı"na məxsus olan gəlirli sahələri ələ keçirdilər. Mümkün olan qədər pulları əllərindən almağa çalışdılar. Daha sonra siyasi təqiblər başladı. Çoxlarına məlumdur ki, Ermənistanda bütün hakimiyyətlər Qarabağ kartından istifadə ediblər. Paşinyan da onların yolu ilə gedərək parlamentdəki aprel komissiyasından öz siyasi məqsədləri üçün istifadə edir. Yaradılmasının ilk günlərindən məlum oldu ki, bu komissiya yalnız siyasi məqsədlər üçün ortaya atılıb. Paşinyan həmin müharibə dövründə olan rəhbərliyi aşağılamaq və keçmiş hakimiyyətlərə təzyiq göstərmək üçün bu təhqiqat komissiyasının vasitələrindən istifadə edir. Keçmiş hakimiyyət təmsilçilərinin bir-bir istintaqa çağırılması buna xidmət edir. Digər tərəfdən, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra erməni mediası, mütəmadi olaraq, aprel məğlubiyyətinə görə Rusiyanı günahlandırır. Qərbpərəst Paşinyan da bundan maksimum istifadə edərək "Qarabağ klanı"nı tam neytrallaşdırmaq istəyir. Çünki Paşinyan Rusiyanın əvvəlki klanı yenidən hakimiyyətə gətirə biləcəyindən çox qorxur. O baxımdan, Nalbandyanın istintaqa çağırılması çox güman ki, aprel məğlubiyyətinə görə Rusiyanı günahlandırmağa hesablanıb. Çünki məsələnin kökündə siyasi məqsədlər dayanır".

*"...erməni mediası, mütəmadi olaraq, aprel məğlubiyyətinə görə Rusiyanı günahlandırır"*

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, mayın 12-də videokonfrans formatında MDB ölkələrinin Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib. İclasda Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnasakanyan maksimalist tələblərdən imtina haqqında tezis irəli sürüb.**

# Ermənistanın yeni "tarazlı kompromis" və "maksimalist mövqedən imtina" oyunu - Mnasakanyan MDB XİN Şurasında...

***Məhəmməd Əsədullazadə:** "Mnasakanyanın maksimalist, tarazlaşdırılmış güzəşt tezislərinin bazası əsasən Qarabağa "müstəqillik" verməyə hesablanıb"*



O bildirib ki, münaqişənin həlli güzəşt prinsipinə əsaslanır: "Bu mövzuda çox danışmayacağam, bu formatda intensiv şəkildə işləməyə davam edirik. Dinc nizamlanmanın alternativi yoxdur, biz praktiki işi hədəf götürmüşük, bu praktiki işi il həyata keçirmişik və bundan sonra da davam etdirmək niyyətindəyik. Güc tətbiqi, gücdən istifadə təhdidi qəbul edilmir. Bu münaqişənin həlli güzəşt prinsipinə əsaslanır: bu, həmçinin, tərəflərdən hər hansı birinin maksimalist mövqeyi inkar etməsi və bütün tərəflərin tarazlaşdırılmış, möhkəm güzəşt əldə etmək üçün üzərinə götürdükləri öhdəliklərin müqayisəsi deməkdir. Biz Dağlıq Qarabağ münaqişəsinin müstəsna olaraq sülh yolu ilə nizamlanmasına nail olmaq niyyətilə dinc nizamlanma prosesi çərçivəsində bu istiqamətdə işləməyə davam edəcəyik".

Ancaq Mnasakanyan Ermənistanın maksimalist mövqelərdən imtinasının nədən ibarət olduğunu izah etməyib. Ermənistan mətbuatında Ermənistan XİN-in bu sözləri Dağlıq Qarabağın və Ermənistanın bir dövlət kimi birləşməsindən imtina kimi izah olunur. Orada hesab edirlər ki, Bakı Azərbaycanın işğal edilmiş torpaqlarında müstəqil "Artsax dövlətinin" mövcudluğunu Ermənistan tərəfin güzəşti kimi qəbul etməlidir.

Maraqlıdır, Mnasakanyan maksimalist mövqelərdən imtina deyərkən söhbət nədən gedə bilər? Digər tərəfdən, Mnasakanyan həm də bununla tarazlı kompromis termini işlədib. Bu nə deməkdir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bununla bağlı bir sıra məqamlara toxundu: "Ermənistan Baş naziri və Xarici İşlər nazirinin hansı termin, yaxud hansı üslubda danışmasından asılı olmayaraq, ortada hər hansı variantın özündə əks etdirən plan var. Mnasakanyanın maksimalist, tarazlaşdırılmış güzəşt tezislərinin bazası əsasən Qarabağa "müstəqillik" verməyə hesablanıb. Onların bu kimi əlavə terminlərdən istifadə etməsi hədəfə digər istiqamətdən getməyə əsaslanır. Ona görə də Mnasakanyan tarazlaşdırılmış güzəşt dediyi budur. Yenidən danışıqların əsas bazasından yayınmaq və hədəfi digər istiqamətə yönləndirməkdir. Bu, erməni xislətidir və onların ideya bazasında güzəşt anlayışı Azərbaycan üçün məqbul varianta əsaslanmayan tezis üzərində qurulub.

Mnasakanyan bununla göstərmək istəyir ki, onlar güzəştə hazırdırlar, amma Azərbaycan buna getmir. Bu səbəbdən onların lüğətindəki erməni budaq cümləsi ilə danışıb. Artıq Azərbaycanın onların bu sərsəm budaq cümlələrinə səbr etməsi imkanları tükənib. Ordumuzun keçiriləcək böyükmiqyaslı təlimləri Paşinyan və Mnasakanyan üçün xəbərdarlıq olacaq. Azərbaycan, bütövlükdə, Ermənistanın bu kimi təkliflərinə qarşıdır".

*"Onların məqsədi yenidən danışıqların əsas bazasından yayınmaq və hədəfi digər istiqamətə yönləndirməkdir"*

***Vidadi ORDAHALLI***

# Paşinyanın babasının Hitlerə satılması faktı və rəsmi Kremlin Baş nazirə münasibəti...

**Məlum olduğu kimi, bu gün faşizm ideyalarının yaşadılması istiqamətində fəaliyyət göstərən yeganə ölkə qismində Ermənistanın çıxış etməsi artıq heç kim tərəfindən təkzib edilməyən birmənalı həqiqətdir. Təsadüfi deyil ki, bütün ölkələr nasizmdən imtina etsə də, yalnız Ermənistan fərqli mövqedədir.**

*"...bu, Paşinyana qarşı münasibətdə də özünü göstərəcək"*

***Fikrət Sadıqov:** "Əlbəttə ki, bu, iki dövlət arasında münasibətlərə mənfi təsir edəcək"*

Ermənistanın Baş naziri Nikol Paşinyanın babasının II Dünya Müharibəsində nasistlər tərəfində döyüşməsi faktının ortaya çıxması da bu mənada çox şeydən xəbər verir.

Bu arada Nikol Paşinyanın babasının Hitlerin əsgəri olması faktı onu sübut edir ki, Ermənistanın Baş naziri sələflərinin yox, birbaşa babasının və soyqırımı ideologiyasının erməni banilərinin mirasını davam etdirir. Məsələ ondadır ki, Ermənistanın indiki Baş nazirinin babası Ukraynanın bugünkü Jitomir vilayəti sovet ordusu tərəfindən faşistlərdən azad ediləndən ilyarım əvvəl, yəni 1943-cü il sentyabrın 29-da, bu vilayətin Zvyaqel kəndində haqlı olaraq məhv edilib. Sovet qoşunları yaxınlaşdıqca, oradakı partizan dəstələrinin və gizli qrupların fəallığı artırdı. Buna görə də istisna edilmir ki, hitlerçi-njdeçi Nikol Paşinyan məhz xalq könüllü dəstələrinin belə cəsarətli müqavimət əməliyyatlarından birində məhv edilib.

O da məlumdur ki, Jitomir vilayətində yəhudi əhalini kütləvi şəkildə qırıblar. Bu iş əsasən SS polislərinə və digər murdar ünsürlərə tapşırılırdı. Ermənistanın indiki Baş nazirinin babasının da məhz bu yolla çörəkpulu qazandığı ehtimal edilir. Rusiyalı ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko qeyd edir ki, Paşinyanın babası ətrafında qalmaqal və erməni Baş nazirin Qaregin Njdeni müdafiə etməsi fonunda gözlənilməz susqunluğu çoxlu sual yaradır.

O da məlumdur ki, Rusiya rhbərliyi faşizmlə bağlı məsələlərə həssas yanaşır. Bu baxımdan maraqlıdır, Paşinyanın



babasının faşistlərə satılması xəbərləri rəsmi Moskvanın ona münasibətinə necə təsir edə bilər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Paşinyanın babasının faşistlərə satılması faktı iki ölkə münasibətlərinə mənfi mənada təsirsiz ötüşməyəcək: "O cümlədən, bu, Paşinyana qarşı münasibətdə də özünü göstərəcək. Nəzərə almaq lazımdır ki, Kremlin Ermənistandakı hazırkı rejimə münasibəti o qədər də yaxşı deyil. Ötən iki il ərzində bu dəfələrlə özünü göstərib. Onlar başa düşürlər ki, Ermənistanın Rusiyaya tabe olması bir qanun və aksiomdur.

Bununla belə, Paşinyan rejiminin apardığı siyasət zaman-zaman Kremli qıcıqlandırır. Bundan başqa, Paşinyanın hitlerçilərə xidmət etməsi faktı ortaya çıxıb. Əlbəttə ki, bu, iki dövlət arasında münasibətlərə mənfi təsir edəcək. Zatən, Paşinyanın ikibaşlı siyasət aparması, faşistlərə xidmət edən şəxslərin adlarının əbədiləşdirilməsində qərarlılıq göstərməsi Moskva tərəfindən xoş qarşılanmır. Bu tərəfdən də Paşinyanın babası ilə bağlı faktların ortaya çıxması proseslərə öz təsirini göstərəcək".

***Vidadi ORDAHALLI***

# Dərin beynəlxalq təzyiq altında sıxılan Ermənistan - Paşinyan hakimiyyətinin son atəşkəs pozuntularında niyyətləri...

**Son günlər ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini mütəmadi şəkildə pozmağa başlayıb. İki gün əvvəl onlar iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.**

***Daşdəmir Əliyev:** "Son dönəmdə Azərbaycan-Rusiya münasibətlərində olanlar da prosesə təsir edir"*

Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən verilən məlumata görə, Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub.

Ermənilərin indiki məqamda atəşkəsi mütəmadi şəkildə pozmasının səbəbi nə ilə bağlı ola bilər?

Hərbi-siyasi şərhçi Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, getdikcə daha ağır duruma düşən Ermənistanın bu gedişlə işğal siyasətini davam etdirməsi də çətinləşir:"Hər halda, Ermənistanın özündə də çoxsaylı etiraflar səslənir ki, Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyət ölkənin daha sürətlə zəifləməsi fonunda erməni tərəfinin lehinə deyil. Ermənistan qarşısında əsas çağırışlar Qarabağ məsələsi, koronavirus, sosial-iqtisadi və xarici siyasət, məhkəmə böhranları və aşağı səviyyəli idarəetmə ilə bağlıdır. Artıq Ermənistanın özündəki politoloqlar da etiraf edir ki, ölkənin 2022-ci ilə qədər böhran vəziyyətində olacağı gözlənir. Beynəlxalq təzyiqlərin fonunda Qarabağın Azərbaycana qayıtmaq ehtimalı da artır. Son dönəmdə Azərbaycan-Rusiya münasibətlərində olanlar da prosesə təsir edir. Lavrovun son açıqlamalarından göründü ki, Qarabağ məsələsində Rusiya təşəbbüsü tam öz əlinə almağa çalışır, Azərbaycan isə ona dəstək verməyə hazırdır. Çünki Kreml prosesdə Bakının istədiyi mövqeni sərgiləyir. Lavrovun açıqlaması Ermənistan daxilində hələ də böyük bir çaxnaşma yaradıb.




Xatırladaq ki, bu günlərdə Ermənistan ordusu atəşkəsi daha iriçaplı silahlarla pozub. Bütün bunlar Ermənistandakı daxili siyasi səhədə olduqca qaynar reallıqların fonunda baş verir və təsadüfi deyil".

Ekspertin sözlərinə görə, bu yaxınlarda Qarabağdakı separatçı rejimin "Baş qərargah rəisinin müavini" Kamo Vardanyanın izlədiyi taktiki təlimlər zamanı gecə şəraitində müdafiə və əks-hücum taktikaları sınaqdan çıxarılıb. Təlimlərdə xüsusi təyinatlı qüvvələrlə ayrı-ayrı qoşun növləri arasında əlaqə yoxlanıb. Pandemiya fonunda təmas xəttində hökm sürən sakitliyi pozan Ermənistan hakimiyyəti ötən ay ərzində işğal altındakı Cəbrayıl, Ağdam və Qubadlı rayonlarında 10 minə qədər hərbçinin iştirak etdiyi taktiki təlimlər də keçirib. İrəvanın son hərbi fəallığı ilə təmas xəttində gərginliyi artıracaq təxribatlara hazırlaşdığını söyləmək olar. Bütün bunlar diqqəti daxildəki problemlərdən uzaqlaşdırmaq, beynəlxalq təşkilatların təzyiqlərinə isə silahla cavabın verildiyini nəzərə çatdırmaq məqsədi güdür".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Azərbaycanın hərbi gedişləri Ermənistanı Qarabağ siyasətini dəyişməyə vadar edir - İrəvan "Bu dəfə bizə kim kömək edəcək" sualı qarşısında...

**Məlum olduğu kimi, bu ayın əvvəlində müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun rəhbər heyəti ilə keçirdiyi xidməti müşavirə zamanı yeni hərbi əməliyyatlara hazırlaşmaq barədə göstəriş verib.**

Bu zaman müdafiə naziri ordu rəhbərliyinin diqqətini son zamanlar düşmənin təxribat hərəkətlərinin aktivləşməsi ilə döyüş fəaliyyətlərinin yenidən başlanması ehtimalının kəskin artmasına yönəldib. Nazir tərəfindən ön xətdə və düşmən müdafiəsinin dərinliyində kəşfiyyatın bütün növlərinin gücləndirilməsi, döyüşə hazırolma planlarının dəqiqləşdirilməsi, qoşunların hərtərəfli təminatı, həmçinin intensiv dərslərin, məşqlərin və təlimlərin keçirilməsinə dair konkret tapşırıqlar verilib. Müdafiə naziri bütün səviyyələrdən olan komandirlərdən düşmənin müxtəlif təxribatlarının qarşısının alınması, cəbhənin bütün istiqamətlərində onun aktivləşməsinə qətiyyətlə yol verilməməsi və döyüş fəaliyyətlərinin aparılmasına hazır olmalarını tələb edib. Elə o vaxtdan bəri bu məsələ Ermənistanda geniş müzakirə edilməkdədir.

Düşmən ölkədə hesab edilir ki, Azərbaycan bu fonda Dağlıq Qarabağ münaqişəsinin hərbi həllinə start verməyə hazırlaşır və bu istiqamətdə də yaxın tezlikdə müvafiq addımlar atacaq. Məhz bu durumda ordumuzun yeni hərbi təlimlərə start verməsi Ermənistanın narahatlığının daha da artmasına rəvac verib. Qeyd edək ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, mayın 18-dən 22-dək Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək. Təlimlərə 10 min nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq. Keçirilən təlimlər zamanı döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qismlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanılacaq. Təlimin niyyətinə əsasən, düşmənin əməliyyat düzülüşünün bütün dərinliyindəki müəyyən istiqamətlərdə qoşunların tətbiqi, kütləvi raket və artilleriya, aviasiya bomba-həmlə zərbələrinin endirilməsi, həmçinin silahlanmada olan yüksək dəqiqliyə malik vasitələrin istifadəsi nəzərdə tutulur. Müxtəlif təlim mərkəzləri və poliqonlarda qoşunların praktiki fəaliyyətləri yoxlanacaq. Indi Ermənistanda hesab edilir ki, Azərbaycan hərbi rəhbərliyinin son açıqlamaları fonunda təlimlərin istənilən an real döyüş əməliyyatlarına keçmə ehtimalı kifayət qədər yüksəkdir. Ermənistan ordusunun ehtiyatda olan polkovniki, hərbi ekspert Hayk Nahapetyan bildirir ki, Azərbaycan yeni genişmiqyaslı təlimlərə hazırlaşır və bu o deməkdir ki, Ermənistan sayıqlığı artırmalıdır: "İstənilən hərbi əməliyyat hərbi təlimlər bəhanəsi ilə qoşunun yerdəyişməsindən sonra hansısa istiqamətlərdə mərkəzləşə və sonra hərbi əməliyyat başlaya bilər. Nəzərə almaq lazımdır ki, artıq yeni hərbi əməliyyatlar üçün Azərbaycan ordusuna da müvafiq göstərişlər verilib". Burada erməni tərəfi Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun son açıqlamalarına da xüsusi diqqət yetirir. Qeyd edilir ki, artıq Elmar Məmmədyarov da, danışıqların davam etməsinin əksinə olaraq, Ermənistanı savaşla təhdid edir. Belə ki, Elmar Məmmədyarov MDB Xarici İşlər Nazirləri Şurasının videokonfrans formatında keçirilən iclasında bildirib:"Ermənistan rəhbərliyinin son açıqlamaları göstərir ki, işğalçı ölkə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması prosesinin aktivləşdirilməsinə mane olmaq üçün əlindən gələni edir. Bununla da regional sabitliyə və təhlükəsizliyə yeni təhdidlər yaradır". Nazir qeyd edib ki, Azərbaycan münaqişənin ən qısa zamanda siyasi həllinə sadiqdir:"Bununla yanaşı, danışıqlar əbədi davam edə bilməz. Həmçinin, danışıqlar güc tətbiqi, işğal və etnik təmizləmə nəticəsində yaranmış vəziyyətin davam etdirilməsinə və saxlanmasına xidmət etməməlidir". Ermənistanda hesab olunur ki, bununla rəsmi Bakı danışıqlardan usandığını, qısa zamanda nəticə olmasa, savaşa başlamaq niyyətini ortaya qoyur. Erməni hərbi ekspert Karen Vrtanesyan da vəziyyətin bu dəfə fəqrli olduğunu bildirir: "Daxili və beynəlxalq miqyasda vəziyyət xeyli dəyişib. Qarabağ yenidən qaynar qazana dönə bilər. Bugünkü vəziyyətdə bu qaçılmazdır. Bu dəfə bizə kim kömək edəcək?". Karen Vrtanesyan Azərbaycan-Ermənistan savaşının yenidən başlanmasını ermənilər üçün fəlakət adlandırıb: "Bizə ilk savaşda Rusiya dəstək verdi. Ancaq bu gün onlar bizə dəstək verməyəcək. Çünki biz hələ hansı yolda olduğumuzu müəyyənləşdirməmişik. Tam səmimi deyirəm, əgər savaş başlasa, Azərbaycanın qarşısını heç kim kəsməyəcək". Bu fikirlərdən aydın görünür ki, Qarabağ məsələsinin hərbi həll ehtimalı, əslində Ermənistanda ciddi qorxu ilə qarşılanır. Hadisələr bu səpkidə inkişaf edəcəyi təqdirdə də əsas günahkar qismində Ermənistan hakimyyəti göstərilir. Çünki məhz onun absurd mövqeyi üzündən danışıqlar prosesi dalana dirənmiş vəziyyətə düşüb. Ermənistanda isə belə durumda, ən azından, politoloqlar və siyasi şərhçilər səviyyəsində hər kəs bilir ki, Azərbaycanın hərbi potensialı ilə Ermənistanın hərbi potensialı müqayisə belə edilə bilməz. Azərbaycan ordusu indi ən müasir silahlarla təchiz edilib. Bu durumda sülh danışıqları sona qədər getməsə, Azərbaycan ordusu Ermənistana lazım olan cavabı verəcək. Ermənistanın isə ordu və digər sahələrdə ciddi problemləri getdikcə daha dəhşətli vəziyyət almağa başlayır. Məhz belə vəziyyətdə mümkün savaş Ermənistanı çökdürməkdən başqa heç nəyə xidmət etməyəcək. Bu mənada, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Robert Sekuta bildirir ki, Ermənistan üçün ən yaxşı yol Azərbaycanla danışıqlar masasında razılıq əldə etməkdir. Onun sözlərinə görə, Dağlıq Qarabağda və ətrafındakı işğal olunmuş ərazilərdə uzun sürən münaqişə qəbuledilməzdir:"Təəssüf ki, münaqişənin çox uzun müddət davam etməsinə icazə verildi. Mövcud vəziyyət nə Ermənistana, nə də Azərbaycana fayda gətirir. Hər iki ölkədə insanlar əzab çəkməyə və ölməyə davam edir. Dinc bir həll yolu üzərində çalışmaq üçün bir araya gəlmək vacibdir. Minsk Qrupu həmsədrləri bu məsələdə irəliləyişə nail olmaq üçün çalışmağa davam edirlər. Bu illər ərzində irəli sürülən planlar var və mənim başa düşdüyüm də budur ki, bir müddətdir o plan masa üzərindədir. Düşünürəm ki, beynəlxalq ictimaiyyət də bu uzadılmış münaqişəni həll etmək üçün tərəflərin səylərini dəstəkləməli və bölgədəki digər münaqişələrin həllinə kömək etməlidir. Dağlıq Qarabağ və digər uzun sürən münaqişələr soyuq müharibədən sonra bölgənin inkişaf edəcəyinə ümidimizi, Avropanın isə təhlükəsizliyini təhdid edir". Sabiq səfir hərbi müstəvidə Azərbaycanın son illər ərzində kifayət qədər gücləndiyini və Ermənistanın bunu mütləq şəkildə nəzərə almasının vacibliyini bildirir. İndilikdə isə o da Ermənistanın mütləq mənada nəzərə almalı olduğu faktdır ki, danışıqların dalana dirənməsi fonunda Azərbaycan yenidən hərbi əməliyyatlara başlayarsa, aprel döyüşlərində və Günnüt əməliyyatlarında olduğu kimi, növbəti dəfə Silahlı Qüvvələrimizin sərt zərbəsinə tuş gələcək. Bu zaman Ermənistanı kimsənin, o cümlədən də Rusiyanın müdafiə etməyəcəyinin getdikcə qətiləşməsi düşmən ölkəni çox narahat edir. Bu xüsusda daha bir sübut kimi son proseslərə diqqət yetirilir. Məsələ bundadır ki, Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan İrəvan-Moskva münasibətlərində hər şeyin yaxşı getdiyini təsdiqləməyə çalışsa da, hətta 9 May Qələbə günü də bunun belə olmadığını, problemlərin daha ciddi və bəlkə də daha dərin olduğunu sübut edir. Xüsusilə mayın 8-də Kremlin rəsmi internet saytında Rusiya prezidentinin bir sıra ölkələrin liderlərini və vətəndaşlarını İkinci Dünya müharibəsindəki Qələbə Günü münasibətilə təbrik etdiyi ifadə edilib. Qeyd olunan ölkələrdə, bütün keçmiş sovet ölkələri olduğu kimi, Ermənistan da xatırlanıb. Həmin təbrikdə, Gürcüstan və Ukrayna məsələsində Moskva-Kiyev və Moskva-Tiflis əlaqələrinin vəziyyətini nəzərə alaraq, Putinin sadəcə həmin ölkələrin xalqlarını təbrik etdiyi vurğulanıb.

Bu açıqlama artıq 9 Mayda Ermənistanın baş naziri Nikol Paşinyanın veb saytı tərəfindən Putinin Paşinyanı təbrik etməsi kimi təqdim edilib. Amma bunlar fonunda mayın 9-da Kremlin saytında Rusiya prezidenti Vladimir Putinlə Azərbaycan prezidenti İlham Əliyev arasında telefon danışığının baş tutması barədə bir məlumat yayıldı. Vladmir Putin və İlham Əliyev bir-birini Qələbə günü münasibətilə təbrik etdilər.

Ermənistanla əlaqəli belə bir açıqlama yoxdur?Başqa sözlə, Cənubi Qafqazdan bayram günü ilə bağlı yalnız Azərbaycan Prezidenti ilə telefon danışığı olub. Putinin Ermənistanın prezidenti və ya baş naziri ilə hər hansı bir birbaşa təmas baş tutmayıb. Ermənistanda hesab edirlər ki, Rusiyada İkinci Dünya müharibəsinin bitməsi və Qələbə Gününün ideoloji təməl daşı olması nəzərə alınsa, belə bir vacib gündə İrəvan-Moskva birbaşa ünsiyyətinin olmaması artıq durumun Ermənistanın xeyrinə olmadığını göstərir. Bunun təzahür edəcəyi daha bir istiqamət də məhz Qarabağ münaqişəsi olacaq. Bu səbəbdən Ermənistan Azərbaycanın hərbi təlimlərindən indi daha çox narahatdır. Çünki bu dəfə Azərbaycanı kimsə durdura bilməyəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

**Faşizm üzərində Qələbənin 75 illiyi tamam oldu. Bayram ərəfəsində ən çox canfəşanlıq edən İkinci Dünya Müharibəsində digər ittifaq respublikaları ilə müqayisədə daha az itki verən, qələbənin qazanılmasında elə də böyük rolu olmayan Ermənistandır.**

# Baqramyanın Həzi Aslanova sui-qəsdi beynəlxalq araşdırma komissiyasında...

***Vaqif Abışov:*** *"Baqramyanın törətdiyi cinayətlərin araşdırılması üçün beynəlxalq səviyyəli bir komissiyanın yaradılması təklifi müsbətdir"*

Bu ölkə gah faşist əlaltısı Njdeyə heykəl qoyması ilə fəxr etdiyini bəyan edir, gah İvan (Hovannes) Baqramyanın "əməyini" şişirdib dağ başına qoyur, gah da Babacanyanın, eləcə də digər erməni müharibə iştirakçılarının "fövqəladə döyüş qabiliyyəti"ndən dəm vurur. Son günlər ermənilər Baqramyanı daha çox gündəmə gətirirlər, onun "qəhrəmanlığını" gözə soxmağa cəhd edirlər. İki dəfə Sovet İttifaqı Qəhrəmanı adını alan marşal Baqramyan, əslində, qəhrəman yox, bir cani idi. Əli yüzlərlə sovet insanının qanına batan Baqramyanın bu gün "qəhrəman" kimi təbliğ edilməsi onunla bağlı insanlara qaranlıq qalan bəzi məqamların araşdırılaraq üzə çıxarılmasına zəruri edir.

Baqramyanla bağlı bir sıra faktların gizlin qalmasında sözsüz ki, sovet tarixşünaslarının da günahı az deyil. Sovet tarixşünasları Baqramyanın bioqrafiyasının bir sıra xoş olmayan faktlarını gizlədiblər.

Məlum olduğu kimi, Orlovsk Dövlət Universitetinin 2011-ci ildə dərc edilən "Marşal İ.X.Baqramyanın karyerasının saxtalıqları" adlı araşdırmasında onun bioqrafiyasının bir çox detalı nəzərdən keçirilir. Orada Rusiya imperiyasının süqutundan sonra daşnak ordusunda xidmət göstərən Baqramyanın bolşeviklərin Ermənistanı sovet respublikası elan etdiyi 1920-ci ilin noyabrında deyil, daşnak hökumətinin hakimiyyətdən imtina etdiyi 1920-ci ilin dekabr ayında Qızıl ordunun sıralarına qoşulduğu vurğulanır. O, sovetlərə təslim olmağa məcbur idi, çünki əsgərlər belə bolşeviklərin tərəfinə keçmişdilər.

"1930-cu illərdə Baqramyanın öldürülməməsinin səbəbi İ.V.Stalinin onu təhlükəli hesab etməməsi ilə əlaqədar idi. Həqiqətən də Baqramyan ideoloq deyil, icraçı olub. O, daim çoxluğa tabe olub və gözə çarpan bir fiqur olmadığına və iki ali hərbi təhsil aldığına görə sağ qala bilib. Stalin Baqramyan haqda hər şeyi bilirdi və onu "qarmaqdan asılı" vəziyyətdə saxlayırdı", - deyə araşdırmanın müəllifi Lazarev yazır.

1938-ci ildə Baqramyan ordudan qovulub, bir il sonra isə o, tədris proqramına bərpa olunub.

Yazıçı V.T.Şükin Baqramyanın işdən çıxarılan digər bir komandirlə birlikdə Qızıl meydanda K.E.Voroşilovla görüşərək, bəraət almağa çalışmaları haqqında yazıb.

Məqalədən aydın olur ki, Böyük Vətən Müharibəsinin ilk aylarında Qızıl ordunun düçar olduğu fəlakətə görə Baqramyanın üzərinə böyük pay düşür. Şimal-qərb cəbhəsinin qərargah rəisinin müavini kimi Baqramyan düşmən ordusunun sovet sərhədlərinə çoxlu sayda qüvvə cəlb etməsi barədə məlumatlı idi. Ancaq o, 1941-ci il iyunun 22-nə keçən gecə ordunun tam şəkildə döyüş vəziyyətinə gətirilməsi barədə xəbərdarlıq etməyib. Beləliklə, 500 mindən çox Qızıl ordu döyüşçüsü və komandiri əsir düşüb, müharibənin ilk 15 günü ərzində Qırmızı orduya aid 5826 tankdan 4381-i itirilib. Mühasirədən çıxmağa çalışarkən general-polkovnik Kirponos, general-mayor Tupikov və s. həlak olublar.

Baqramyanın törətdiyi ağır cinayətlərdən biri də iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qətlinə sifariş verməsidir. Tarixçilər yazırlar ki, Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov 24 yanvar 1945-ci ildə Latviyanın Priyekule yaşayış məntəqəsinin yaxınlığında (Liepay rayonu), döyüş meydanından kənarda, komandirlərin döyüşü müşahidə məntəqəsinin ətrafında, 15 nəfərə yaxın iri rütbəli zabitin əhatəsində müəmmalı şəkildə uzaqdan açılan zenit qurğusunun atəşi ilə yaralanıb, 23 saat sağ qalıb, onu Moskvaya müalicəyə aparmaq üçün təyyarə göndərilsə də, həmin vaxt cəbhənin komandanı olmuş erməni Baqramyanın əmrilə təyyarə işə salınmayıb və Həzi Aslanov vəfat edib. Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsində müstəsna xidmətləri olmuş yazıçı-jurnalist Musa Bağırovun "Sərkərdənin taleyi" adlı sənədli kitabında deyilir: "Beqiaşvili Həzi Aslanovun şəxsi həkimi olmuşdu… Beqiaşvili ilə mən Tbilisidə onun evində görüşdüm. O dedi: "H.Aslanov yaralananda mən orada yox idim. Lakin 5 dəqiqə sonra özümü ora çatdırdım. Vəziyyəti ağır idi. Ona təcili surətdə təzə qan köçürmək lazım idi. Mən Həzinin yanına uzandım ki, öz qanımdan 500 qram ona köçürülsün. O, yavaş-yavaş özünə gəlməyə başladı. Hətta bizimlə zarafat da edirdi. Onu Moskvaya aparmaq üçün xüsusi təyyarə gəldi. Həzinin xahişi ilə onu Moskvaya qədər mən müşayiət etməli idim. Amma məni zorla onun yanından ayırıb başqa iş dalınca göndərdilər. Bu, əlbəttə, qəsdən edilirdi. Həzi Aslanov ölməməli idi. Yaralanandan sonra o, düz 23 saat sağ qaldı. Bu müddətdə onu Moskvaya aparmaq üçün ayrılan təyyarə də o yatan evin arxasında dayanmışdı". Beqiaşvilinin fikrincə, H.Aslanov qətlə yetirilib". Həzi Aslanovun qətlini onun daxil olduğu Pribaltika cəbhəsinin komandanı, erməni İvan Xristoforoviç Baqramyan təşkil edib. Çünki H.Aslanovun ölümü döyüşün getdiyi yerdən çox uzaqda, komanda məntəqəsində və öz ordumuzun açdığı mərmi atəşindən sonra mümkün olub.

Bu gün Ermənistanın "qəhrəmanlaşdırdığı" Baqramyanın cinayətlərinin araşdırılmasına başlanıb. Arxivlərdə saxlanan məxfi sənədlərdə onun əməlləri ilə bağlı yüzlərlə fakt var. Bu faktların arasında Baqramyanın faşistlərlə əlbir işləməsi, sovet əsgərlərini qırğına verməsi, H.Aslanovun qətlini sifariş etməsi və sair var. Qeyd edək ki, Baqramyanın cinayətlərinin araşdırılması üçün beynəlxalq tərkibdə komissiyanın yaradılması aktualdır. Azərbaycan alimləri hesab edirlər ki, həmin komissiya yaradılarsa, Baqramyanın bütün cinayət əməlləri üzə çıxar və hətta o, Sovet İttifaqı Qəhrəmanı adından məhrum edilə bilər.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vafiq Abışov baki-xeber.com-a bildirdi ki, belə bir komissiyanın yaradılmasına ciddi ehtiyac var. "Baqramyanın törətdiyi cinayətlərin araşdırılması üçün beynəlxalq səviyyəli bir komissiyanın yaradılması təklifi müsbətdir. Belə bir komissiyanın yaradılmasına böyük zərurət var. Hətta mən deyərdim ki, bir komissiya da iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 1945-ci ildə müəmmalı ölümünün araşdırılması üçün yaradılmalıdır. Komissiya Həzi Aslanovun vəfat etdiyi şəraiti araşdırmalıdır ki, o, necə həlak olub. Necə oldu ki, döyüş getməyən bir ərazidə atılan mərminin qəlpəsi onun həyatına son qoydu? Ona görə də bu cür təkliflər dəstəklənməlidir. Tarix gec-tez həqiqətləri üzə çıxarır və haqq öz yerini tapır".



*"Deyərdim ki, bir komissiya da iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 1945-ci ildə müəmmalı ölümünün araşdırılması üçün yaradılmalıdır"*

V.Abışov vurğuladı ki, İkinci Dünya Müharibəsi dövründə azərbaycanlıların həm ön, həm də arxa cəbhədə hansı şücaətlər göstərməsi, düşmənə layiqli cavab verməsi ilə bağlı arxivlərdə çox qiymətli sənədlər, monoqrafiyalar var. "Düşünürəm ki, Azərbaycanın İkinci Dünya Müharibəsində iştirakı ilə bağlı yeni elmi tədqiqatlara ehtiyac var. Bu məsələ təkcə Rusiya arxivlərində yox, dünyanın digər ölkələrinin də arxivlərində araşdırılmalı və ortaya yeni faktlar əsasında yazılmış əsərlər qoyulmaldır. Azərbaycanın İkinci Dünya Müharibəsində oynadığı rolun obyektiv araşdırılmasına ehtiyac var" - deyə alim bildirdi. O, hesab edir ki, Sovet dövrü Azərbaycan tarixinin bir hissəsidir və onu kəsib atmaq yox, obyektiv araşdırmaq lazımdır.

***İradə SARIYEVA***

**Dünya ölkələrinin böyük narahatlıqla izlədiyi əsas məqamlardan biri də ABŞ və Çin arasında iqtisadi müstəvidə yenidən gərginləşən münasibətlərdir. Onsuz da koronavirus pandemiyası üzündən qlobal iqtisadiyyat kifayət qədər ağır günlər yaşayır.**

# Dünya iqtisadiyyatı ABŞ və Çin üzündən böyük təhlükəyə yuvarlanır: Azərbaycan sığortalanmış durumda...

Bu fonda ABŞ və Çinin yenidən iqtisadi savaşa başlaması vəziyyəti daha də gərginləşdirir.

Bu barədə danışmazdan öncə qeyd edək ki, ABŞ Konqresinin üzvü, respublikaçı senator Lindsi Qrem Senata Çin koronavirusun yayılması ilə bağlı tam hesabat verməyəcəyi və əməkdaşlıq etməyəcəyi təqdirdə bu ölkəyə qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsini tədqim edib. Qrem bu xüsusda bildirib:"Mən əminəm ki, Çin Kommunist Partiyasının yalanı olmasaydı, burada - ABŞ-da virus olmazdı. Çin beynəlxalq ictimaiyyəti araşdırma aparmaq üçün Uhandakı laboratoriyaya buraxmaqdan imtina edir. Onlar mütəxəssislərə pandemiyanın necə başlandığını öyrənməyə icazə verməkdən imtina edirlər. Əminəm ki, məcbur etməsələr, Çin heç vaxt ciddi araşdırmanın aparılması üçün əməkdaşlıq etməyəcək. Çin əməkdaşlıq etməyincə, bu sərt qanun layihəsi ilə ona qarşı sanksiyalar tətbiq ediləcək". Qanun layihəsinə əsasən, Vaşinqton administrasiyasının başçısı 60 gün ərzində Çinin Birləşmiş Ştatlar, onun müttəfiqləri ilə və ya BMT strukturları ilə aparılan istənilən hesabatı verdiyini Konqres qarşısında təsdiq etməli olacaq. Bundan başqa, təşəbbüsün müəllifi Çin hakimiyyətinin virusların heyvanlardan insana ötürülməsi potensialı ola bilən bütün dəniz məhsulları bazarlarını bağlamağı və pandemiyanın başlanğıcından dövlət əleyhinə etiraz aksiyaları zamanı Honkonqda saxlanmış fəalları azad etməyi tələb edir. Ağ Evin məsləhətçisi Piter Navarro CNBC-yə verdiyi müsahibədə bildirib ki, Çin xəstəliklə mübarizə üçün vaxtında həyata keçirilməmiş tədbirlərə görə hesab ödəməlidir. O, ABŞ-ın görə biləcəyi konkret tədbirlərdən danışmaqdan imtina edib, lakin Çin Kommunist Partiyasının Amerika iqtisadiyyatındakı problemlərə görə məsuliyyət daşıdığını anladıb. Amma Çin geri çəkilmək istəmir, hətta əksinə, ABŞ-la yeni iqtisadi savaşa daha yaxşı hazırlaşdığını bəyan edir. Çin Sosial Elmlər Akademiyasının eksperti Gao Linyun bildirir ki, indi Pekin ABŞ-la qarşıdurmaya daha yaxşı hazırdır, çünki Amerika iqtisadiyyatına cavab zərbəsinin necə vurulacağını bilir.



Çinin "Global Times" qəzeti yazır ki, Pekin zərbə üçün ABŞ-dakı görünməmiş problemlərdən, həmçinin qarşıdan gələn prezident seçkilərindən istifadə edə bilər. Bundan başqa məlumdur ki, ABŞ və Çin rəsmiləri münasibətlərin gərginləşməsi fonunda qarşılıqlı ticatətdə yeni rüsumların tətbiqinə də hazırlaşıblar. Bu vəziyyət dünya iqtisadiyyatını məhv etməkdədir. Bir çox ekspertlərin qiymətləndirməsinə görə, koronavirus pandemiyası səbəbindən dünya İkinci Dünya müharibəsindən sonra ən pis böhranla üzləşməkdədir. ABŞ və Çin savaşı isə vəziyyəti daha da pisləşdirir.

Xatırladaq ki, dünyanın iki ən böyük iqtisadiyyatının münaqişəsi 2019-cu ildə qlobal artımın qarşısını kəsən əsas əyləc rolunu oynayıb. Tərəflər yalnız ötən ilin sonunda bir-birinə yaxınlaşmağa doğru addımlar atmağa başlayıblar, yanvarda isə hərtərəfli ticarət sazişinin birinci hissəsi barədə razılığa gəliblər. Buna əsasən. tərəflərin tətbiq etdiyi gömrük rüsumları tədricən aradan qalxmalı idi. İmzalanan sazişlər çərçivəsində Pekin yaxın iki il ərzində ABŞ-dan 200 milyard dollar dəyərində mal və xidmətlər almalıdır. Lakin Vaşinqton Çin qarşısında borc öhdəliklərinin bir hissəsindən imtina etmək qərarına gələrsə, belə satınalmaların ehtimalı kəskin şəkildə azalır. Bundan başqa, son bir ayda ABŞ-da koronavirusu yaydığına görə Çinin cəzalandırılmasının vacibliyi haqda söhbətlər başlayıb. ABŞ prezidenti Donald Tramp məsələ ilə bağlı qeyd edir ki, Çinlə ticarət razılaşması imzalandıqdan qısa zaman sonra koronavirus meydana gəldi:"Uzun zamandır ki, Çinlə müqavilənin bahalı olduğunu deyirəm. Hətta 100 ticarət müqaviləsi itkiləri əvəz etməyəcək və itirilən yüzlərlə canı geri qaytarmayacaq". Öz növbəsində, Çində də belə ittihamların fonunda ABŞ-la ticarət sövdələşməsini pozmaq və münaqişəni davam etdirmək istəyi kəskin şəkildə artmaqdadır. Bundan əvvəl səlahiyyətlilərin əksəriyyəti kompromis düşüncəsinə meylli idi, lakin son zamanlarda öhdəliklərdən imtina üçün fors-major hallardan istifadə ideyası üstünlük təşkil edir. Yuxarıda qeyd olunduğu kimi, Pekində hesab edirlər ki, ABŞ-dakı görünməmiş problemlərdən, həmçinin qarşıdan gələn prezident seçkilərindən istifadə edə bilərlər. "Global Times" qəzeti yazır ki, Çin liderinin ticarət məsələləri üzrə müşavirləri ABŞ-ın Pekinə qarşı koronavirusla bağlı başlatdığı kampaniyaya cavab olaraq Vaşinqtonla bağlanmış ticarət razılaşmasının birinci fazasının ləğv edilməsini məsləhət görürlər. Müşavirlər, həmçinin, Çin hakimiyyətinin yeni ticarət razılaşması imzalamasını məsləhət görürlər:"Faktiki olaraq, hazırda məsələ ABŞ-ın maraqlarına uyğun olan razılaşmanın birinci fazasından imtina etməkdir. ABŞ Çinlə ticarət müharibəsini yenidən başlamağa razı olmayacaq və başladığı nöqtəyə geri dönəcək".

Ekspertlərin fikrincə, yeni ticarət savaşı dünya ölkələrinə də ciddi təsir edəcək. xüsusən də ticarət müharibəsi neftin dünya bazarında qiymətinin yeni çöküşünə gətirib çıxararsa, bu halda dünya iqtisadiyyatı yenidən böhran yaşayacaq. Bu durumda neft hasilatçıları, o cümlədən Azərbaycan itkiləri qeyri-neft məhsullarının ixracı hesabına təmin etməli olacaq. Amma bütövlükdə qlobal ticarət müharibəsinin Azərbaycan üçün təhdid istiqamətində ciddi təsirləri olmayacaq. Çünki Azərbaycan iqtisadiyyatını elə formada qurub ki, dünyada baş verən proseslər ona minimal dərəcədə təsir göstərə bilsin. Xatırladaq ki, bundan əvvəlki ticarət və valyuta savaşları da Azərbaycana hansısa ciddi təsir göstərməmişdi. Amma bununla belə, Azərbaycan da yeni ticarət savaşının əleyhinədir.

**Çünki Çinlə ABŞ arasındakı ticarət müharibəsi hazırda dünya iqtisadiyyatının inkişaf tempinə birbaşa təsir edən faktorlar arasında ilk üçlükdə yer alır. Bu müharibə Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun hesabatlarında dünya iqtisadiyyatına təsir edən faktorlar arasında ilk yerlərdə qərarlaşıb. Dünya iqtisadiyyatının 40 faizinə nəzarət edən iki ölkə arasında ticarət savaşı maliyyə münasibətlərinə, qiymətli kağızlar, əmtəə bazarlarına da öz təsirini göstərir.**

***Nahid SALAYEV***

# Tarix-mədəniyyət abidələrimizin bərbad gündə olmasının müqəssiri - Zakir Sultanovun həbsi hər şeyi açdı...

***Fərhad Quliyev:*** *"Fikrimcə, belə bir mötəbər idarənin yeganə problemi Zakir Sultanovun özü olub"*

**Maddi-mədəni irsin qorunması Mədəniyyət Nazirliyinin Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən həyata keçirilməli olduğu halda, təəssüf ki, biz bunun şahidi ola bilmədik. Zakir Sultanovun rəis təyin edildiyi bu xidmət abidələri mühafizə etməklə, onları qeydiyyata almaqla məşğul olmaq əvəzinə, restavrasiyaya ayrılan vəsaiti mənimsəməklə, digər neqativ məsələlərlə məşğul olub.**




*"Əfsuslar olsun ki, Dövlət Xidmətinin sabiq rəhbəri bu sahədə ciddi tədbir görməyib"*

Bunun nəticəsidir ki, bir neçə gün əvvəl Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Mədəniyyət Nazirliyində həyata keçirilən əməliyyat nəticəsində xidmət rəhbərinin əməlləri ifşa edildi və o, cinayət məsuliyyətinə cəlb edildi.

Bu və digər aidiyyəti məsələlərlə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, arxeologiya üzrə tanınmış mütəxəssis Fərhad Quliyevlə ətraflı söhbət etdik.

- Fərhad müəllim, Azərbaycanda mədəni irsin qorunması, mühafizəsi sahəsində ciddi problemlər olduğunu bu sahəyə bələd olan hər kəs yaxşı bilirdi. Dəfələrlə mütəxəssislər bu məsələ ilə bağlı həyəcan təbili çalırdılar. Amma sanki bu tənqidlərin onlara aid olmadığını zənn edib, bu sahəyə məsul olan şəxslər buna hər hansı bir reaksiya vermirdilər. Sizcə, bunun səbəbi nə idi?

- Səbəblər çoxdur. Məsələn, bölgələrdə abidələrimizin təbliği işi zəif təşkil olunub. Daha çox kampaniya xarakteri daşıyır. Bir-iki tədbirlə məsələlərin gündəmdə olmasına işarə etməyə çalışırlar. Reallıqda isə bölgələrdə mədəni irs məsələləri ilə məşğul olan regional mədəniyyət idarələri və Prezidentin 22 oktyabr 2019-cu il tarixli (№844) fərmanı ilə yeni yaradılmış Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin 5 regional bölməsi fəaliyyət göstərir. Lakin bununla belə, bu strukturların olmasına baxmayaraq, yenə də maddi mədəniyyət abidələrimiz dağıntılara məruz qalır. Bölgələrdə məsul şəxslər bəzi hallarda bu sahəyə biganəlik göstərirlər. Tikinti işləri aparan təşkilatlar tez-tez Azərbaycan Respublikasının "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanununu pozmağa çalışırlar. Halbuki, qanunun 13-cü maddəsində inşaat və digər təsərrüfat işləri görülərkən aşkar edilən abidələrin qorunması və öyrənilməsi məsələsi xüsusilə qeyd olunub. Ümumiyyətlə, abidələrimizə olan münasibət ürəkaçan deyil.

- Ölkəmizdə saysız tarixi-arxeoloji abidə var ki, onların böyük əksəriyyəti siyahıya alınmayıb. Abidələrin bir çoxu Sovet dövründə siyahıya alınmışdı və sonrakı dövrlərdə bu siyahıya çox az sayda abidə əlavə edildi. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti bu vacib işə nə üçün barmaqarası yanaşırdı?

- Ölkəmizdə abidələrin siyahıya alınması və pasporlaşdırılması işi müxtəlif dövrlərdə 1957, 1967 və 2001-ci illərdə həyata keçirilib. 2014-2020-ci illər üzrə qəbul olunmuş Dövlət Proqramına əsasən, abidələrin qeydiyyatı və pasportlaşdırılması yenidən həyata keçirilməli idi. Bu işin təşkilində ən çətin sahə arxeoloji abidələrə aiddir. Arxeoloji abidələrin yerləşməsi ilə bağlı mürəkkəb xüsusiyyətlər mövcuddur. Ölkəmizdə torpaq islahatının aparılmasından sonra arxeoloji abidələrin vəziyyəti bir qədər çətinləşdi. Bir çox yerdə torpaq sahibləri abidələrdə tədqiqat aparmağa bizlərə maneçilik törədirdilər. Hətta elə hallara rast gəlirdik ki, torpaq yiyələri abidənin onların ərazisində olduğuna görə rəsmi şəkildə müqavilə imzalayıb, bizdən müəyyən vəsait tələb edirdilər. Arxeoloji abidələr ölkəmizin bütün bölgələrində çoxluq təşkil edir və əksəriyyəti əkin sahələri ərazisində yerləşir. Bu baxımdan onların qorunması işi mürəkkəbləşib.

Bunları nəzərə alaraq, effektiv idarəçiliyin düzgün təşkili işi həyata keçirilməli idi. Məsələnin həlli ilə bağlı AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Mədəniyyət Nazirliyinin xidməti ilə birlikdə çalışır. Bu sahədə son illər müəyyən işlər görülsə də, əfsuslar olsun ki, ümumən nəticələr qənaətbəxş olmayıb. Abidələrin müasir gündəmin tələblərinə cavab verəcək formatda elektron pasportlaşdırılması və nəticədə məlumatlar bazasının yaradılmasına böyük ehtiyac var. Bu işin təşkilini müəyyən vaxt ərzində həyata keçirmək mümkündür.

- Sizin institut bu məsələdə Dövlət Xidmətinə yaxından kömək edə bilərdi…

- Əlbəttə. Nazirliyin Dövlət Xidmətində və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda bu işi bacaran kifayət qədər təcrübəli mütəxəssis var. Bizim institutumuzun mütəxəssisləri Xəqani Alməmmədov, Səbuhi Hüseynov və Fuad Hüseynov arxeoloji abidələrin pasportlaşdırılması ilə bağlı müəyyən işlər görmüşlər. Ümumiyyətlə, arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılmasını arxeoloqlardan başqa kimsə yaxşı həyata keçirə bilməz. Bunu bacarmaq üçün işin düzgün təşkili olmalıdır. Nazirliklə AMEA-nın birgə fəaliyyəti gücləndirilməlidir. Bunun üçün Dövlət Proqramının icrası ilə bağlı əlavə tenderlərin keçirilməsinə ehtiyac yoxdur.

- Bir sıra məsələlər var ki, onunla bağlı tez-tez tenderlər elan edilir. Ortada dövlətin külli miqdarda vəsaiti havaya sovrulur. Sizcə, buna ehtiyac var?

- Hər məsələyə görə tender keçirirlər. Abidələrin qeydiyyatı və ya muzey ekspozisiyalarının tərtibatı işləri və s. Digər ölkələrdə bu işləri həmin qurumların öz işçiləri həyata keçirirlər. Xüsusilə qeyd etməliyəm ki, bu illər ərzində çoxlu sayda arxeoloji abidəmiz dağıdılıb. Bizim ən böyük problemimiz qanunsuz arxeoloji qazıntılardır. Qızıl axtarmaq məqsədilə arxeoloji abidələrimiz dağıdılaraq qarət edilib. Son illər əsasən kurqan qəbir abidələrimiz "düşmənlərimizin" hücumuna məruz qalıb. Əfsuslar olsun ki, Dövlət Xidmətinin sabiq rəhbəri bu sahədə ciddi tədbir görməyib, tələb olunan həyəcan təbilini vurmayıb. Onun bu sahəyə ciddi şəkildə biganəliyi qanunsuz arxeoloji qazıntılar aparan qarətçilərin işinə dəstək olub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, əslində, ölkənin ən önəmli təşkilatlarından biridir. Təsadüfi deyil ki, bütün sivil ölkələrdə mədəni irsin qorunması ilə bağlı dövlət təşkilatları mövcuddur. Əsasən Türkiyə, Yunanıstan, Misir və digər turizm sahəsi inkşaf edən ölkələr mədəni irsin qorunması və təbliği ilə məşğul olan bu tip təşkiltların fəaliyyətinə xüsusi önəm verirlər.

Əgər mədəni irsin qorunması fəaliyyəti ilə məşğul olan dövlət təşkilatları bəzi ölkələrdə Mədəniyyət Nazirliyi strukturuna daxildirsə, elə ölkələr də var ki, bu tip təşkilatlar müstəqil fəaliyyət göstərib, heç bir nazirliyin tərkib hissəsi deyil. Bu və ya digər halda, mədəni irs məsələləri ilə məşğul olan dövlət təşkilatlarının məqsədi və məramı eynidir. Bu təşkilatların əsas fəaliyyəti abidələrin qorunması və bərpasıdır. Fikrimcə, belə bir mötəbər idarənin yeganə problemi Zakir Sultanovun özü olub. Onun mədəni irs sahəsində ciddi biliklərə malik olmaması və ümumiyyətlə, bütün məsələlərə biganəliyi açıq-aşkar hiss edilirdi. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, ölkəmizdə ayrıca struktur olaraq Mədəni İrs Dövlət Agentliyinin yaradılması bu günün tələblərinə cavab verərdi.

***İradə SARIYEVA***

**Dünya iqtisadiyyatına koronavirusun vurduğu böyük zərər fonunda əksər ölkələrdə iqtisadi müstəvidə ciddi azalma qeydə alınır. Bura hətta dünyanın ən böyük iqtisadiyyatları da aid edilir. Onlarla müqayisədə Azərbaycanda iqtisadi vəziyyətin daha sabit və hələ də artan xətt üzrə inkişafı müşahidə olunur.**

# Azərbaycanın tranzit imkanlarına dünya miqyasında tələb sürətlə artır... Hətta pandemiya dövründə də...

Elə bunun nəticəsidir ki, cari ilin ilk rübündə Azərbaycan iqtisadiyyatı 0.2 faiz artıb. Dünya iqtisadiyyatında geriləmənin olması fonunda Azərbaycanda bu göstərici müsbət faktor sayılır.

Digər tərəfdən hesablamalar göstərir ki, bu ilin yanvar-aprel aylarında ölkədə istehsal olunmuş ümumi daxili məhsulun (ÜDM) dəyəri 22 milyard 400,5 milyon manat təşkil edib. İqtisadiyyatın qeyri-neft-qaz sektorunda ÜDM istehsalının dəyəri isə 14 milyard 529,7 milyon manat təşkil edib. Bu hal iqtisadiyyatın artıq əsas etibarı ilə qeyri-neft sektoru üzrə inkişaf etməsinin daha bir real təsdiqidir. Bundan başqa, büdcə icrası ilə də bağlı Azərbaycan yenə üstün mövqedədir. Belə ki, pandemiyanın tüğyan etdiyi yanvar-aprel aylarında dövlət büdcəsinin gəlirləri 9 milyard 574,2 milyon manat, xərcləri isə 7 milyard 267,7 milyon manat təşkil edib. Büdcənin icrasında 2 milyard 306,5 milyon manatlıq profisit yaranıb. Məhz bu məbləğ ölkəyə yeni manevr imkanları da qazandırır. Digər tərəfdən proseslər göstərir ki, elə qeyri-neft sektoru hesabına da iqtisadiyyatın artımı davam edəcək.

Hazırda bu istiqamətdə Azərbaycanın əsas uğurlarından biri də tranzit yükdaşımalar, xüsusən də Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xətti istiqamətində özünü göstərir. Bu dəmir yolu indi Azərbaycan üzərindən daha böyük həcmdə yükdaşımaya rəvac verməkdə, onun gəlirlərini artırmaqdadır. Qeyd edilən səpkidə Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunun açıqlamaları da xüsusi diqqət cəlb edir. Onun sözlərinə görə, yeni növ koronavirus infeksiyasının yaratdığı məlum problemlər Bakı-Tiflis-Qars dəmir yolu xətii ilə daşımaların həcminin artmasına səbəb olub. O bildirib ki, xarici ticarətdə BTQ-nin imkanlarına ciddi tələbat yaranıb:"Bu xətt daşımaların vaxtında və təhlükəsiz həyata keçirilməsi üçün cəlbedici polad magistraldır. Bakı-Tiflis-Qars dəmir yolu xəttinin tutumunu artırmaq üçün işləri sürətlə tamamladıq. Türkiyə-Gürcüstan sərhədinin Türkiyə tərəfindəki "Canbaz" Stansiyasında BTQ-yə gündəlik əlavə 3500 ton tutum artımı təmin edəcək konteyner köçürmə sistemini quraraq işə saldıq".

Yeni quraşdırılan terminalın yükdaşımada intensivliyin artmasını təmin etdiyini diqqətə çatdıran nazir deyib ki, bunun sayəsində Qazaxıstan və Azərbaycandan 15 vaqona yüklənmiş 27 konteynerdə 1200 ton mədən, əkinçilik məhsulları və xam maddələr Mersin, Dərincə və Dənizli istiqamətində yola salınıb. Bu xətlə Avropaya tranzit məhsulların da vaxtında daşınması təmin edilir. Onun sözlərinə görə, pandemiya dövründə təhlükəsizliyin yüksək olması səbəbilə dəmiryol nəqliyyatı vasitəsilə yüklərin nəql edilməsinə tələbat artıb:"Xüsusilə Orta Asiya ilə xarici ticarət əlaqələrində BTQ-yə tələbdə artım müşahidə olunur. Bakı-Tiflis-Qarsa artan tələbi qarşılamaq üçün prezident Rəcəb Tayyib Ərdoğan gündəlik əlavə olaraq 3 500 ton yükün daşına bilməsi üçün göstəriş verib. Prezidentin bu göstərişini bu çətin dövrdə sürətlə yekunlaşdırdıq. "Canbaz" stansiyasındakı konteyner ötürmə sistemini işə saldıq". Nazir qeyd edib ki, bu xətt vasitəsilə bu günə qədər 5 250 konteynerdə 240 min ton ixrac malı, 5 300 konteynerdə isə 280 min ton idxal malı və ya Avropaya tranzit yük daşınıb:"Bu da BTQ-nin nə qədər əhəmiyyətli bir investisiya layihəsi olduğunu göstərir".

Araşdırmalar da göstərir ki, koronavirus pandemiyası bütün dünyada iqtisadiyyatın əksər sahələrinə, o cümlədən nəqliyyat sektoruna mənfi təsir göstərsə də, bunu dəmir yolu ilə yük daşımalarına aid etmək olmaz. Bu baxımdan Azərbaycan da istisna deyil. Çünki dəmir yolu ilə yükdaşımalarda təmassız keçidi təmin etmək mümkündür. Yeni dəmir yolu xətti pandemiyanın mövcud olduğu şəraitdə ən təhlükəsiz yükdaşıma modelidir. Bu isə bir sıra ölkələrin dəmir yolu ilə yükdaşımalara marağını artırdı. Azərbaycanın siyasi və iqtisadi dəstəyi ilə işə düşmüş Bakı-Tiflis-Qars dəmir yolu xəttində də yükdaşımaların bundan sonra da artan xətt üzrə inkişaf edərək ölkəyə daha çox gəlir gətirməsi gözlənilir. Təsadüfi deyil ki, son 1 ildə dəmir yolu ilə hərəkət etmiş vaqonların sayı 611-dən 1.572-yə,




yüklərin həcmi isə 40 min tondan 70 min tona çatıb. Bununla bağlı millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov da bildirir ki, BTQ pandemiya dövründə də strateji əhəmiyyətini qoruyub saxlaya bilib: "Yükdaşımaların həcminin artması region ölkələrinin dəmir yolu xəttinə marağının artmasından xəbər verir. Odur ki, pandemiya dövründə də müsbət dinamika qorunub saxlanılıb.

BTQ Azərbaycanın dövlət gəlirlərinin, valyuta ehtiyalatının formalaşmasında mühüm rol oynayır və xüsusi əhəmiyyətə malikdir". Onun fikrincə, BTQ ilə yükdaşımalarda müsbət dinamika 2020-ci ilin növbəti aylarında da davam edəcək:"Çünki bu dəmir yolu xətti artıq öz əhəmiyyətini sübut edib, odur ki, Azərbaycan üzərindən daşınan yüklərin həcmində növbəti aylarda da artım müşahidə ediləcək və gəlirlərimiz artacaq". Bir daha xatırladaq ki, BTQ Asiya və Avropanın dəmiryol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir.

***Ramil QULİYEV***

# Baş Prokurorluq Ağcabədidə təcavüz olayını təkzib etdi, xəbəri yayanların başqa əməlləri ortaya çıxdı

**Baş Prokurorluqda aparılmış araşdırmalarla Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş Əfqan Sadıqovun "facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə qəsdən və qərəzli şəkildə sensasiya naminə Ağcabədi rayonu Taxtakörpü qəsəbəsində məskunlaşan Laçın rayonundan olan məcburi köçkün Aysel Səlimovanın ayrı-ayrı şəxslər tərəfindən guya zorakılığa məruz qalması ilə bağlı müraciətlərin polis və prokurorluq orqanları tərəfindən qeyri-obyektiv araşdırılmasına dair məlumatlar yaydığı müəyyən edilib.**



İctimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət etməklə cinayətkarlığa qarşı mübarizə sahəsində hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən tədbirlərin üzərinə kölgə salmağa yönələn həmin məlumatlar həqiqəti əks etdirmədiyindən Baş Prokurorluq tərəfindən qəti şəkildə təkzib olunur.

Belə ki, Baş Prokurorluqda aparılmış araşdırmalarla müəyyən edilib ki, Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində yaşayan Aysel Səlimova və Ayşən Cəfərova bacıları təcavüzə məruz qalmaları barədə rayon prokurorluğuna, eləcə də rayon polis şöbəsinə hər hansı müraciət etməyib və bu barədə araşdırma aparılmayıb.

Araşdırmalarla həmçinin müəyyən edilib ki, əvvəllər də Laçın rayonunun müxtəlif vəzifəli şəxslərini ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə onlara böhtan atması və təhqir etməsinə görə Əfqan Sadıqov xüsusi ittiham qaydasında Cinayət Məcəlləsinin 147.2 (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) və 148-ci (təhqir) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməsi üçün ayrı-ayrı şəxslər tərəfindən Cəlilabad rayon məhkəməsinə edilmiş müraciətlər əsasında hər iki cinayət işi hazırda məhkəmə baxışı mərhələsindədir.

Əfqan Sadıqov məhkəməyə verildikdən sonra sosial şəbəkələrdə mütəmadi olaraq həmin şəxslər və ayrı-ayrı yerli dövlət qurumları haqqında qərəzli, həqiqəti əks etdirməyən məlumatlar yaymaqdadır.

Həmçinin qeyd edilməlidir ki, Ayşən Cəfərova və anası Bənövşə Nəcəfova ərizə ilə Laçın rayon Polis Şöbəsinə müraciət edərək, Ə.Sadıqovun sosial şəbəkələrdə yaydığı böhtan xarakterli məlumatlarla bağlı barəsində müvafiq tədbirlərin görülməsini xahiş ediblər.

"Azel TV" xəbər portalının baş redaktoru Əfqan Sadıqovun qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində Əfqan Sadıqovun "Xəbərfakt.az" internet xəbər portalının baş redaktoru Sakit Muradovla qabaqcadan əlbir olaraq barələrində rüsvayedici məlumatlar silsilə məqalələrlə kütləvi informasiya vasitələrində yayacaqları hədəsi ilə mayın 9-da Sumqayıt Şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsləri ilə görüşərək həmin məlumatların yayımlanmaması müqabilində 15 min manat məbləğində pul tələb etdikləri müəyyən olunub.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən məhkəmə qərarı əsasında həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 13 may 2020-ci il tarixdə cinayətkar niyyətlərini həyata keçirərək vəzifəli şəxslərdən tələb etdikləri pulun 10 min manatını paytaxtın Xətai rayonu ərazisində alarkən hər iki şəxs cinayət başında yaxalanıb və cinayətin predmeti olan 10 min manat pul vəsaiti aşkar olunaraq götürülüb.

Əfqan Sadıqov törətdiyi cinayət əməli ilə bağlı ifadə verməkdən imtina etsə də, digər şübhəli şəxs Sakit Muradov törətdikləri əməli tam etiraf edib, bundan başqa, onların törətdikləri cinayət əməllərinə dair əməliyyat-texniki tədbirlər nəticəsində sübutlar əldə edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 182.2.1 və 182.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında xeyli miqdarda əmlakı hədə-qorxu ilə tələb etmə) maddələri ilə cinayət işi başlanıb.

Əfqan Sadıqov və Sakit Muradov təqsirləndirilən şəxs qismində cəlb edilərək Ə.Sadıqovun barəsində məhkəmənin qərarı ilə həbs, S.Muradovun barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə təqsirkar şəxslərin dairəsinin tam müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Son mərhələ bağlanan bir neçə bankda "qorunmayan 3 milyon manat" əmanətin taleyi...

**Son bir ayda Azərbaycanda bağlanan bankların sayı 4-ə çatdı. Məlumat üçün bildirək ki, Mərkəzi Bank mayın 12-də rəsmi məlumat yayıb. Açıqlamada qeyd olunur ki, Mərkəzi Bankın İdarə Heyətinin 27 aprel 2020-ci il qərarları ilə "AGBank", "AtaBank", "Amrah Bank" və "NBC Bank"a müvəqqəti inzibatçılar təyin olunub, aprelin 28-də isə "AtaBank"la "Amrah Bank"ın lisenziyaları ləğv edilib.**



## Əkrəm Həsənov: *"Əmanətləri qorunmayan əhali və sahibkarlar mütləq kreditorlar komitəsi təşkil etməlidirlər"*

12 may məlumatına əsasən, kapitallarını tam itirdiklərinə, kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilmədiklərinə, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiklərinə görə "AGBank"la "NBC Bank"ın da lisenziyaları alınıb və hər iki bankın müflisləşmə yolu ilə ləğvi barədə məhkəməyə müraciət olunub: "Lisenziyası geri alınmış 4 bankda əhalinin qorunan əmanətlərinin ümumi məbləği 686 milyon manat olmaqla, ümumilikdə, 215 min əmanətçini əhatə edir. Bu banklarda ümumi əmanət portfelinin 99%-dən çoxu qorunan əmanətlərdir və onlar tam kompensasiya olunur.

Qanuna görə, illik faiz dərəcəsi milli valyutada 10 faizdən, xarici valyutada 2,5 faizdən yüksək olmayan əmanətlər tam sığortalanıb. Əmanətlərin Sığortalanması Fondu 1 iyun 2020-ci ildən milli valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsini 12 faizə qaldıracaq.

Mərkəzi Bankın sədri Elman Rüstəmov keçirdiyi son mətbuat konfransında bildirib ki, bağlanan 4 bankda ("AGBank", "Amrah Bank", "AtaBank", "NBC Bank") əhalinin 690 milyon manata yaxın vəsaiti var idi. Bununla yanaşı, problemli kreditlərin həcmi 73 faizə yaxın idi. Ona görə də bu banklar əmanətləri qaytarmaq iqtidarında deyildi: "Prezident İlham Əliyev tərəfindən "Əmanətlərin sığortalanması haqqında" Qanunun müddətinin uzadılması və bu qanunun mövcudluğu bu gün imkan verir ki, bağlanan banklardakı əhalinin əmanətləri qaytarılsın. Həmin banklarla müzakirələr bu ilin yanvarından aparılıb, auditor hesabatı müvafiq olaraq 24 və 167 milyon manat həcmində mənfi kapital aşkar edib. Lisenziyaları ləğv olunan banklarda olan ipoteka kreditlərinin ümumi məbləği təxminən 211 milyon manat təşkil edir. Qeyd olunan kreditlərin taleyi, yəni hansı mövcud banklara yönləndiriləcəyi Azərbaycan İpoteka və Kredit Zəmanət Fondu tərəfindən həll olunacaq. Banklarda olan əmanətlərin böyük hissəsi sığortalanıb, sığortalanmayan əmanətlərin məbləği 3 milyon manatdan çox deyil".

Maraqlıdır, bağlanan banklarda qorunmayan əmanətlərin taleyi necə olacaq? Məlum sığortalanan əmanətlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən əmanətçilərə geri qaytarılacaq.

Məsələ ilə bağlı fikir bildirən bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənov qeyd etdi ki, banklarda yalnız əhalinin əmanətləri yox, sahibkarların da pulları var: "Məsələn "AGBank"da sahibkarların 90 milyon manat pulu var. Digər 3 bankda sahibkarların cəmi 25 milyona yaxın pulu var. Burada yenə də fərq qoymaq lazımdır. Bəzi banklar, təbii ki, əmanətləri oğurlayıb. Bəzi banklar isə kredit veriblər və o kreditlər qayıtmayıb. Buna görə də işləri məhkəməyə düşüb və məhkəmə də illərlə uzanır. Amma bu heç də o demək deyil ki, həmin pullar qayıtmayacaq. Məsələn "AtaBank" kimi bankda əmanətlərin başına daş salıblar, amma bu, "AGBank"da belə deyil. Yəni "AGBank" həmin pulları ya kredit verib, indi də yığa bilmir, ya da həmin kreditlərlə bağlı məhkəmə prosesi gedir.

*"Əsas risq vətəndaşların qorunmayan əmanətləri və sahibkarların pullarıdır, çünki əvvəlki bağlanan bankların təcrübəsi..."*

Məlum məsələdir ki, qorunan, sığortalanmış əmanətləri Əmanətlərin Sığortalanması Fondu qaytarmalıdır. Əmanətlərin Sığortalanması Fondunda da indi bu qədər pul yoxdur. Buna görə də Mərkəzi Bank Fonda kredit verəcək. Sonra da Əmanətlərin Sığortalanması Fondu bağlanan bankların əmlakını satmaqla, verdiyi krediti qaytarmaqla Mərkəzi Bankın pulunu qaytaracaq.

Burada əsas risq vətəndaşların qorunmayan əmanətləri və sahibkarların pullarıdır. Çünki əvvəlki bağlanan bankların təcrübəsi onu göstərir ki, o pullar böyük ehtimalla batır. Eyni zamanda, Əmanətlərin Sığortalanması Fondunun qeyri-şəffaf fəaliyyəti nəticəsində də əmanətlərin çoxu batır. Buna görə də əmanətləri qorunmayan əhali və sahibkarlar mütləq kreditorlar komitəsi təşkil etməlidirlər. Həmçinin, onlar fondun fəaliyyətinə nəzarət etməlidirlər ki, fond hər şeyi düzgün etsin".

***Günel CƏLİLOVA***

# Pandemiya bölgələrdən aqrar məhsulların Bakıya daşınmasında ağır problemlər yaratdı - aqrar məhsulların bazar problemi...

**Koronavirus pandemiyası zamanı Azərbaycan daxilində tətbiq olunan hərəkət məhdudiyyəti rayonlardan ölkənin əsas bazarına - Bakıya kənd təsərrüfatı məhsullarının daşınmasında çətinliklər yaratdı. Belə ki, karantin tədbirləri çərçivəsində kiçikhəcmli yük maşınları ilə daşımalar qadağan edildi.**

*"Aqrar məhsulların topdansatış infrastrukturu əsasən iri bazarların yaxınlığında formalaşdırıldıqda daha effektiv olur"*

***Firdovsi Fikrətzadə:** "İxtisaslaşmış topdansatış institutlarının yaradılması aktualdır"*

Azərbaycanda rayonlardan aqrar məhsullar əsasən xırda və orta tutumlu maşınlarla daşındığına görə nəticədə qadağalar xeyli sayda insanın daşımalardan kənarda qalmasına səbəb oldu.

Artıq ölkədə tez xarab olan kənd təsərrüfatı məhsullarının yığım və satış dövrü başlamaq üzrədir. Mövcud karantin rejimi şəraitində heç də hamının öz məhsulunu böyük maşınlarla daşımaq imkanı yoxdur.

Pandemiya dövründə aqrar məhsulların bazar problemini necə həll etmək olar?

Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə bildirdi ki, aqrar sektorun inkişafı baxımından ən aktual məsələlərdən biri məhz kənd təsərrüfatı məhsulları üzrə logistika infrastrukturunun formalaşdırılmasıdır: "Xüsusilə ixtisaslaşmış topdansatış institutlarının yaradılması aktualdır. Bu baxımdan bizdə logistik infrastruktur üçün yaxşı baza kimi çıxış edə biləcək soyuducu anbarlar infrastrukturu kifayət qədər formalaşdırılıb. Bundan sonrakı ehtiyac bu infrastruktur üzərində peşəkar topdansatış institutunun formalaşdırılmasıdır. Buna görə də kənd təsərrüfatı məhsullarının logistikası ilə bağlı bütün təşəbbüslər aktualdır. Bu institutun hansı formatda olmasını özəl sektor müəyyənləşdirməlidir. Bu, adicə topdansatış üzrə platforma kimi də, birja formatında da ola bilər".

Mərkəz rəhbəri onu da əlavə etdi ki, bununla bağlı Şərqi Avropa ölkələrinin təcrübəsi öyrənilir:



"Təcrübə göstərir ki, aqrar məhsulların topdansatış infrastrukturu əsasən iri bazarların yaxınlığında formalaşdırıldıqda daha effektiv olur. Yəni Azərbaycanda ən böyük bazar Bakı şəhəridirsə, topdansatış infrastrukturu da onun yaxınlığında olmalıdır. Bizdə rayonlarda kiçikhəcmli də olsa, topdansatış infrastrukturlar var. Özəl sektor maraqlı olarsa, regional infrastrukturlar da yarada bilər. Dövlətin burada dəstəyi həmişəki formada ola bilər. Bildiyiniz kimi, dövlət logistik mərkəzlərin yaradılmasına güzəştli kreditlər vasitəsilə dəstək verir. İndi də özəl sektor istəyərsə, dövlət dəstəyini əldə edə bilər".

**Günel CƏLİLOVA**

# Sığorta şirkətlərinin "EuroHome" sahibkarları ilə nə problemi var...

**Mayın 12-də paytaxtın Binəqədi rayonunda yerləş?ən "EuroHome" tikinti materialları bazarında yenidən yang?ın bas? verib. Ərazisi təxmini 22500 kv.m-ə yaxın olan bazarın 3300 kv.m. hissəsi yanıb. Yanğın xüsusilə taxta, dik, boya, xırdavat materiallar satılan mağazaları əhatə edib.**

*"...sahibkarları zərərlərlə üz-üzə qoyur"*

***İlkin İbrahimov:** "EuroHome" tikinti materialları bazarındakı məsələ artıq təhlükəli hal alıb"*

Mağaza sahiblərinin yaydığı məlumatda qeyd edilir ki, üçüncü sırada yerləşən təxminən 10-a yaxın mağaza yanaraq kül olub, mallarının böyük hissəsi yararsız hala düşüb.

Malları yanan mağaza sahibləri bildirirlər ki, bazara heç bir sığorta şirkəti girmədiyi üçün obyektləri sığortalanmayıb.

Maraqlıdır, sığorta şirkətləri böyük bazarları sığorta etməkdə həvəsli deyillər. Apardığımız araşdırma zamanı məlum oldu ki, sığorta olunmazdan əvvəl obyekt və bazarların risq qrupuna daxil olub-olmadığı araşdırılır. "EuroHome" bazarı ilə bağlı isə qeyd olundu ki, yanğınların səbəbi bilinmədiyi üçün şirkətlər sığorta etmək istəmirlər.

Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov media nümayəndələrinə açıqlamasında qeyd edib ki, ticarət mərkəzində baş vermiş hadisə ilə bağlı hələ ki, konkret bir söz deyə bilməz, amma bu məsələ ilə bağlı araşdırma aparılacaq. Kimin sığortası varsa, kompensasiya alacaq.

Məsələ ilə bağlı fikir bildirən sığorta üzrə ekspert İlkin İbrahimov qeyd etdi ki, "EuroHome" tikinti materialları bazarındakı məsələ artıq təhlükəli hal alıb və ciddi araşdırma tələb edən məsələlərdən birinə çevrilib: "Bu günə kimi baş verən yanğınlardan görünən odur ki, belə halların təhlükəsizliyinə nəzarət edən qurum daim qarşı tərəfi ittiham edir. Bu ittihamlar onu göstərir ki, onlar da bu məsələdə irəliləyişə nail ola bilmirlər. Bu məsələdə tək sahibkarlar və bazar sahibi məsuliyyət daşımır. Çünki bazarın təhlükəsizlik qaydalarına nəzarət və orada qaydaqanunun yoxlanılması birbaşa FHN-in vəzifəsidir. Bu günə kimi bütün yanğınlardan sonra bu qurum hər dəfə qarşı tərəfi günahlandırır. Bu azmış kimi, heç kim onlardan buna qədər hansı tədbirləri gördüklərini ya soruşmur, ya da soruşduqda onlardan sənəd əsasında sübut ala bilmirlər. İnzibati Xətalar Məcəlləsinə əsasən, obyektləri və bütöv bazarı sığortalamamağa görə FHN-in səlahiyyətli şəxsləri dükan sahiblərini və bazar rəhbərini cərimələməli idilər. Lakin maraqlıdır ki, belə tənbeh tədbirləri görülməyib. Digər tərəfdən, sahibkarların bu məsələdə günahı ondan ibarətdir ki, onlar birinci yanğın hadisəsindən sonra sığortalanmağa ciddi yanaşmayıblar. Ümumiyyətlə, bütün sahibkarlar bu məsələdə həm dövlətin, həm də əlaqədar qurumların tələb və tövsiyələrini heçə sayırlar. Bu da hadisədən sonra sahibkarları zərərlərlə üz-üzə qoyur".




Ekspertin sözlərinə görə, daşınar əmlakla bağlı sığortalanma səviyyəsi ölkə üzrə, ümumilikdə, zəif gedir: "Lakin xüsusilə sahibkarlar üçün daşınar əmlakın sığortası vacibdir. Eyni zamanda, daşınar əmlakın sığortalanması üçün sahibkarların da mühasibatlıqlarının rəsmiləşdirilməsi çox vacibdir. Belə ki, daşınar əmlak sığortalanan zaman nə qədər malın bilinməsi üçün mütləq mədaxil olunan mal görünməlidir. Bu ona görədir ki, sığorta şirkəti də öz risqini, yəni gələcəkdə baş verən hadisədə nə qədər ödəməli olmasını hesablasın".

**Günel CƏLİLOVA**

№ 78 (4209) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

15 MAY 2020-ci il

www.baki-xeber.com




## Videonun ötürülməsi üçün yeni standart təqdim olunub

**Videoelektronika Standartlaşdırma Assosiasiyası (VESA) "DisplayPort Alternate Mode" (Alt Mode) standartının 2.0 versiyasını təqdim edib.**

"İctnews.az" bildirir ki, versiya "USB-IF" təşkilatı tərəfindən dərc edilən yeni "USB4" spesifikasiyası ilə uyğunluq təşkil edir və "USB-C" çıxışı vasitəsilə "DisplayPort 2.0" standartının sonuncu versiyasının bütün funksiyalarının işini təmin edir. Xatırladaq ki, "DisplayPort Alt Mode" adi "USB-C" konnektoru vasitəsilə audio və videomәlumatları "DisplayPort" interfeysi üçün xarakterik sürətdə ötürməyə, eləcə də "USB" ilə məlumatların və 100 vat gücündə enerjini bir kabellə ötürməyə imkan verir. "DisplayPort Alt Mode 2.0" rejimində bütün dörd yüksəksürətli kabel və ya "USB-C" çıxışının köməyi ilə 80 Qbit/saniyə tutumlu "DisplayPort" videomәlumatların ötürülməsi mümkündür. Proqnozlara görə, "DisplayPort Alt Mode 2.0" dəstəkli ilk məhsullar 2021-ci ildə satışa çıxarılacaq.

2019-cu ilin iyununda təqdim edilən "DisplayPort 2.0" standartı əvvəlki "DisplayPort" versiyası ilə müqayisədə məlumat ötürmə qabiliyyətini üç dəfə artırıb, eləcə də displeylərin məhsuldarlığı ilə bağlı gələcək tələblərə cavab vermək üçün yeni imkanlar təmin edib. Söhbət artırılmış təsvir ölçülərində "8K" və daha yüksək tezlik yenilənməsi və genişləndirilmiş dinamik diapazon (HDR) dəstəyindən gedir. "USB-C" noutbuk və mobil qurğu bağlantılarında üstünlük təşkil etməyə başlayıb və "DisplayPort Alt Mode 2.0" sayəsində bu çıxış vasitəsilə 80 Qbit/saniyə sürətlə məlumat və enerjinin ötürülməsi ilə yanaşı, oyun monitorları, "HDR" ekranlar, əlavə və virtual reallıq şlemlərinin qoşulması təmin olunur.



## Azərbaycanda üç dildə danışa bilən tutuquşu fantastik qiymətə satılır

**Sumqayıtda fantastik qiymətə tutuquşu satılır.** "Baku.ws" xəbər verir ki, üç dildə danışa bilən tutuquşunun beş yaşı var. "Jako" sinfinə aid olan erkək tutuquşunun qiyməti 100 min manatdır. Tutuquşu Azərbaycan dilində danışır və bundan başqa, rus və ingilis dillərində də sözlər bilir.

## Elan

Əhmədov Vidadi Mamedoviçin (AZE 08879416) adına, Bakı şəhəri, Yasamal rayonu, X.Mustafayev küçəsi, ev 121 ünvanının sənədləri itdiyi üçün etibarsız sayılır.

Hacıyev İmamverdi Abbasəli oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq pr. ev 140, mənzil 35 ünvanının Daşınmaz əmlakın dövlət reyestri xidməti tərəfindən verilmiş arayışı itdiyi üçün etibarsız sayılır.

Poladova Gülbəniz Zəkəriyə qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, 369 V saylı bağ evinin çıxarışı (seriya RX N1242902) itdiyi üçün etibarsız sayılır.

## "Azercell" "Kabinetim" mobil tətbiqinin yeni versiyasını təqdim edir

**İstifadəçilərə ən yaxşı müştəri təcrübəsi bəxş etmək məqsədilə "Azercell Telekom" MMC tərəfindən işlənib hazırlanmış "Kabinetim" mobil tətbiqinin yeni versiyası abunəçilərin ixtiyarına verildi. Artıq abunəçilərin işini daha da asanlaşdıran, bəzi funksiyaları əlçatan edən yeni imkanlar vasitəsilə tətbiq daha rahat, funksional və rəqəmsal xüsusiyyətlərə malikdir.**

Belə ki, "Kabinetim" mobil tətbiqinin yeni versiyasında abunəçi istifadə etdiyi nömrənin rəsmi sahibini asanlıqa öyrənə bilər. Bunun üçün, sadəcə, proqramdakı kənar menyuya daxil olmaq kifayətdir. Digər yenilik "Mənim Profilim" bölməsində edilib. Bu bölmədə imza sahibinin adı və soyadı ilə yanaşı, əlavə əlaqə nömrəsi və elektron ünvanın qeyd olunması üçün imkan yaradılıb. Sözügedən hər iki funksiyadan yalnız fiziki şəxslər yararlana biləcəklər.

Önəmli yeniliklərdən biri də Mobil Ödəmə sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Belə ki, fakturasız xətt istifadəçiləri artıq öz nömrəsinə aid kabinetdən digər "Azercell" nömrəsinə balans köçürə bilər. Bundan əlavə, yenilənmiş "Kabinetim" mobil tətbiqində "İnternet" və"Balansı artır" bölmələrindən istifadəçi təcrübəsi də təkmilləşdirilib.

Qeyd edək ki, "Kabinetim" mobil tətbiqinin önəmli xüsusiyyətlərindən biri də odur ki, tətbiqdən istifadə zamanı meqabaytlar xərclənmir. Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan çoxfunksional "Kabinetim" tətbiqini "App Store" və ya "PlayStore"dan yükləmək mümkündür. Tətbiq avtomatik yenilənməyibsə, yükləmə üçün bit.ly/Kabinetim keçidindən istifadə etmək olar.

Müasir texnologiyalar və rəqəmsal həlləri təqdim edən "Kabinetim" tətbiqi istifadəçilərə nömrə xəttini şəxsən idarə etmək, balansı nəzarətdə saxlayıb artırmaq, internet paketləri və rominq internet paketlərini aktivləşdirmək, tarif paketini dəyişmək və bir çox başqa imkanlar təqdim edir. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən "Kabinetim" tətbiqi üzərindən onlayn çat vasitəsilə "Azercell" müştəri xidmətlərinə müraciət etmək və QR skan ilə xidmətlərə qoşulmaq da mümkündür.

Rəqəmsal həllərin tətbiqi yolu ilə müştəri məmnuniyyətini daha da yüksəltməyi hədəfləyən "Azercell" "Kabinetim" tətbiqinin funksionallığını artırmaqda davam edəcək. Odur ki, istifadəçilər mobil tətbiqlə bağlı təkliflərini digital@azercell.com elektron poçt ünvanına göndərə bilərlər.





**Qoç** - Günün birinci yarısı həddən artıq diqqət və ehtiyat tələb edəcək. Bu dövrdə yaxşı olardı ki, ümumiyyətlə heç nə etməyəsiniz, amma belə bir imkan çətin yarana. Ən azından, vacib qərarlar verməyə, bütün körpüləri yandırmağa tələsməyin.

**Buğa** - Axşam daha xoş keçəcək. İstənilən faydalı fəaliyyət üçün münasib gündür. Yaradıcı potensialınız yüksəkdir, həm özünüzün, həm sizə yaxın olan insanların həyatını maraqlı etməyə çalışırsınız.

**Əkizlər** - İstənilən mübarizə maraqlı bir işə çevrilir. Düşmənlər nə qədər aktiv və enerjilidirlərsə, onlara müqavimət göstərmək bir o qədər maraqlı gəlir. Çoxları risk etməyə meyl edirlər, haqlıdırlar, özünü doğruldacaq.

**Xərçəng** - Bu gün xeyli mübahisə yarana bilər. Əksəriyyət isə məhz öz məntiqinin doğru olduğuna əmin olmaq üçün mübahisə edir. Xoşbəxtlikdən, fikir ayrılıqları münaqişə üçün əsas vermir, əsasən konstruktiv ruhda müzakirələrə çevrilir.

**Şir** - Müsbət tendensiyaların təsiri çox güclüdür. Doğrudan da, möhtəşəm qələbələr qazana bilərsiniz. Hər şeyə vaxtınız çatır: həm işə, həm ictimai fəaliyyətə, həm istirahətə, həm yaxınlarınızla ünsiyyətə.

**Qız** - Maliyyə vəziyyətiniz yaxşıdır. Qətiyyətli və məqsədyönlü, eyni zamanda inadcılsınız. Bəzən o qədər inad edirsiniz ki, yaxınlarınız sərbəst qərar vermək hüquqlarını müdafiə etməli olurlar.

**Tərəzi** - Həm işgüzar, həm şəxsi münasibətlər baxımından əla gündür. O, həm vacib məsələlərin həlli, həm də gələcək planların müzakirəsi üçün münasibdir. İstənilən işə ciddi və əsaslı yanaşırsınız.

**Əqrəb** - Əsəbi olacaqsınız. İstənilən xırdalıq sizi özünüzdən çıxara bilər. Var qüvvənizlə yaxınlarınızla münaqişədən qaçmağa çalışın, əks halda küskünlük və fikir ayrılıqları çox uzun sürəcək.

**Oxatan** - Dostlarınızın əhatəsində gözəl vaxt keçirəcəksiniz. Ola bilsin ki, yeni tərəfdaş və həmfikir tapasınız. İdeyalarınızı müzakirəyə çıxarmaqdan, təşəbbüs göstərməkdən çəkinməyin.

**Oğlaq** - Birmənalı gün deyil. O, demək olar ki, əla başlayır, adi axarla davam edir və darıxdırıcı notlarla bitir. Səhərçağı həmçinin kütlə qarşısında çıxış, romantik görüşlər, sevgi etirafları üçün də münasibdir.

**Dolça** - Bu gün gördüyünüz bütün işlər sizə məmnunluq gətirir. Yaradıcılığa meyliniz artıb. Bəzi Dolçalar əvvəllər bilmədikləri istedadlarını kəşf edəcəklər.

**Balıqlar** - İşgüzar və şəxsi sferalarda müəyyən problemlər yaranır. Ancaq siz onları görməməyi üstün tutursunuz. Əla taktikadır: həyatsevərlik və nikbinliyinizlə insanları cəlb edirsiniz, onların sayəsində isə çox şeyə nail ola bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Təzyiq sağ, yoxsa sol qolda ölçülməlidir?



**Belə hesab olunur ki, arterial təzyiq sol qolda ölçülməlidir. Lakin bu belə deyil.**

"Saglamolun.az" bildirir ki, rusiyalı kardioloq, tibb elmləri doktoru Elena Vışınskaya kp.ru-ya müsahibəsində qeyd edib ki, əslində, təzyiq hər 2 qolda ölçülməlidir. Daha böyük rəqəm arterial təzyiqin əsl göstəricisi sayılmalıdır.

Həmçinin, həkim bildirib ki, sağ və sol qolda olan təzyiqin fərqinə fikir vermək lazımdır. 10 mm.c.st qədər olan fərq norma sayılır. "Saglamolun.az" bildirir ki, fərq bundan çoxdursa, mütləq həkimə müraciət etmək lazımdır. Bunun səbəbi ateroskleroz, tromb, damarda iltihab, anevrizma, xoş və ya bədxassəli şiş ola bilər.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.